

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Zəfər ayının 5-ci günü...

## Vətən müharibəsinin 40-cı günü

## 05.11.2020



Bax səh. 3


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

5 noyabr 2024-cü il, çərşənbə axşamı
№ 204 (6790)
Qiyməti 60 qəpik


# Bakı Olimpiya Stadionunun ərazisində...

## Prezident və birinci xanım COP29-la bağlı yaradılan şəraitlə tanış olublar




Bax səh. 2

# Qlobal təhdidlərə qarşı...

Bax səh. 3

## 10-cu görüş...

Ötən ilin payızından etibarən Ermənistan ilə Azərbaycan arasında müvafiq delimitasiya komissiyaları çərçivəsində baş tutan görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar bir faktı önə çıxardı - üçüncü tərəfin iştirakı olmadan razılıq əldə etmək imkanları daha böyükdür. Nümunə ortadadır - artıq bir ildir ki, davam edən prosesdə iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlama yayılıb, aprel ayında dövlət sərhəddinin müəyyən hissəsinin delimitasiya və demarkasiyası ilə bağlı razılaşma əldə olunub və icra edilib, nəhayət, komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə qəbul edilib. Münasibətlərin normallaşması prosesində mühüm bir ştrix sayılan sərhədlərin delimitasiyası və demarkasiyasında əldə olunan razılıqlar isə sülh üçün zəmin formalaşdırır...

Yeri gəlmişkən, noyabrın 1-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti, onuncu görüşü keçirilib. Komissiyaların birgə fəaliyyəti haqqında avqustda imzalanan Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, görüş zamanı Tərəflər həmin Əsasnamənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların onların dövlətləri tərəfindən yerinə yetirilməsi barədə bildirişləri mübadilə ediblər. Əsasnamənin 7-ci maddəsinin bu cür prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündə onun qüvvəyə...

Bax səh. 2

## 47-ci prezident kim olacaq?




Bax səh. 5

## COP29 üçün müvəqqəti gömrük nəzarət zonası

Bax səh. 3

## Mayya Sandu postunu qoruya bildi

Bax səh. 5

## Sudanda nə baş verir?

Bax səh. 7

## Keçmişdə qalmış gələcək

Bax səh. 6

## Avropada müsəlman olmağın çətinliyi

Bu gün zaman-zaman bəşəriyyətə çoxlu sayda mütərəqqi dəyişikliklər gətirmiş, yeniliklərə yol açmış Avropada geriyə qayıdışı - milli-dini-irqi ayrı-seçkiliyin eybəcər təzahürlərinin baş qaldırdığını, xüsusilə də İslamofobiyanın geniş vüsət aldığını izləmək çox kədərlidir. Bu günlərdə Avropa İttifaqının (Aİ) Fundamental Hüquqlar Agentliyi (FRA) Aİ-yə üzv olan 13 ölkədə 9600 müsəlman iştirakı ilə keçirdiyi "Avropada müsəlman olmaq. Müsəlmanların təcrübələri" adlı sorğunun nəticələrini açıqlayıb. FRA bildirir ki, İttifaqa üzv ölkələrdə müsəlmanların təxminən yarısı gündəlik həyatlarında ayrı-seçkilik və nifrət ritorikası ilə üzləşir.

Bütün səmavi dinlər kimi, İslam dini də bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Bu dinin təməlində və ideologiyasında milli-dini fərqliliyə görə insanlar arasında ayrıcı xətlər çəkilmir, nifrət, şiddət aşılanmır, əksinə insanlara birgəyaşayışa, barışığa çağırış edilir. Belə bir saf dini aşağılamaq bütün əxlaq və insanlıq normasını aşmaq anlamına gəlir. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta müqəddəs dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan "qoca qitə"də bir sıra hallarda dini təəssübkeşliyə və dözümsüzlüyə çağırışlar edilir, İslamofobiya getdikcə daha çox dərəcədə həyat normasına çevrilir. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. Son illərdə Yaxın Şərqdə əsasən İslam dininə sitayiş edən insanların yaşadıqları coğrafiyalarda kədərli münaqişələr yaşanır, qanlı müharibələr səngimək bilmir, insanlar həyatlarını itirirlər. Bu münaqişələrin və...

Bax səh. 4

## İran İsraili hücum edəcəkmi?



Bax səh. 5

## Avropa üçün yeni müdafiə ittifaqı...



Bax səh. 6

# Bakı Olimpiya Stadionunun ərazisində...








## Prezident və birinci xanım COP29-la bağlı yaradılan şəraitlə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə ətraflı məruzə edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, Sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolf-mobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxıblar.

Dövlətimizin başçısı və birinci xanım COP29-un rəsmi Mavi Zonasında açılış mərasimində Milli bəyanatların səsləndiriləcəyi "Nizami" Plenar İclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları ilə tanış olublar. Qeyd edilib ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var. Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək Mavi Zonada hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.

Dövlətimizin başçısı və birinci xanım akkreditasiya və qeydiyyat prosesləri ilə tanış olublar. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verilib, tədbirə böyük marağın olduğu bildirilib.

Digər ölkələrin və tərəflərin pavilyonlarının yerləşdiyi zonaya baxan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış olub, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq Yaşıl Zonada olublar, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik Mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxıblar. Yaşıl Zonanın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verilib.







# Zəfər ayının 5-ci günü...

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

**Vətən müharibəsinin 40-cı günü**

**05.11.2020**

• Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

• Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib.

• Müdafiə Nazirliyi Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntülərini yayıb.

• Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələrinin həyata keçirdiyi əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub. Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dəqiq artilleriya zərbələri ilə dağıdılıb.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət olaraq bölmələrimizin ələ keçirdiyi hərbi texnikaların görüntülərini paylaşıb.

• Ermənistan ordusu Goranboyun kəndinə "Smerç" raketi atıb

• Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyası və hərbi kolonu pusquya salınaraq məhv edilib.

• Baş Prokurorluğun məlumatına əsasən, düşmənin təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək 92 mülki şəxs həlak olub, 404 nəfər xəsarət alıb, 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb.



# 10-cu görüş...

## Komissiyaların birgə fəaliyyəti Əsasnaməsi qüvvəyə mindi

## Sülh üçün yeni imkanlar...

Ötən ilin payızından etibarən Ermənistan ilə Azərbaycan arasında müvafiq delimitasiya komissiyaları çərçivəsində baş tutan görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar bir faktı önə çıxardı - üçüncü tərəfin iştirakı olmadan razılıq əldə etmək imkanları daha böyükdür. Nümunə ortadadır - artıq bir ildir ki, davam edən prosesdə iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlama yayılıb, aprel ayında dövlət sərhəddinin müəyyən hissəsinin delimitasiya və demarkasiyası ilə bağlı razılaşma əldə olunub və icra edilib, nəhayət, komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə qəbul edilib. Münasibətlərin normallaşması prosesində mühüm bir ştrix sayılan sərhədlərin delimitasiyası və demarkasiyasında əldə olunan razılıqlar isə sülh üçün zəmin formalaşdırır...

### Növbəti müzakirələr...

Yeri gəlmişkən, noyabrın 1-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti, onuncu görüşü keçirilib. Komissiyaların birgə fəaliyyəti haqqında avqustda imzalanan Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, görüş zamanı Tərəflər həmin Əsasnamənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların onların dövlətləri tərəfindən yerinə yetirilməsi barədə bildirişləri mübadilə ediblər. Əsasnamənin 7-ci maddəsinin bu cür prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündə onun qüvvəyə minməsini təsbit etməsini nəzərə alaraq, sözügedən Əsasnamənin 2024-cü il noyabrın 1-də qüvvəyə mindiyi vurğulanıb.

Görüşdə növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ətrafında fikir mübadiləsi aparılıb, delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələri müzakirə edilib. Son olaraq növbəti görüşün keçirilməsinin tarixinin və yerinin işçi qaydada müəyyən edilməsi ilə bağlı razılıq əldə olunub.

### Sülhün vacib elementi...

Göründüyü kimi, uzun illərdən sonra Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması artıq reallığa çevrilir. Azərbaycanın 2020-ci il Vətən müharibəsində və 2023-cü il antiterror tədbirlərində əldə etdiyi qələbə bölgədə yeni siyasi mənzərə formalaşdırıb - Ermənistan anlayır ki, regional təhdidə çevrilməklə heç nə əldə etməyəcək. Əksinə, Azərbaycanın sülh çağırışlarına adekvat cavab vermək regional inkişafın bir hissəsinə çevrilmək, bu inkişafdan yararlanmaq perspektivi formalaşdırır. Bunun nəticəsidir ki, son 1 ildə Ermənistan ilə Azərbaycan arasında gedən müvafiq danışıqlar müəyyən pozitiv nəticələrə yol açıb. İkitərəfli komissiyaların aktiv şəkildə görüşməsi isə sülh prosesinə mühüm töhfələr qazandıra bilər. Dövlət sərhədlərinin müəyyənləşməsi, delimitasiya və demarkasiyanın həyata keçirilməsi sülh şərtlərindən biri kimi münasibğətlətrin normallaşmasına xidmət göstərir. Xüsusilə, hazırkı sülhlə bağlı açıq mətnli fikirlərin səsləndirildiyi bir dövrdə ikitərəfli komissiyaların aktiv işi mövqelərin yaxınlaşmasına əsaslı yol aça bilər. Vurğulayaq ki, Azərbaycan hər zaman sülhün və beynəlxalq hüququn tərəfdarı kimi çıxış edib - hətta 30 illik işğal dövründə belə ölkəmiz sülhpərvər mövqedən geri çəkilməyib. İndiki halda, bu istiqamətdə addımların davam etdirilməsi son sənədin ortaya çıxmasını zəruri edir, eyni zamanda, bu kimi uğurlu nəticəyə imza atılması yenə də Azərbaycanın mövqeyinin düzgün olmasını növbəti dəfə sübuta yetirir. İllərdir ki, ikitərəfli təmasların yarada biləcəyi üstünlükləri önə çəkən dövlətimiz bunu əyani şəkildə ortaya qoyur. İndiki mərhələdə isə Ermənistanın atacağı addımlar sülhün daha da tezləşdirilməsinə yol aça bilər - bunun üçün ən əsas şərt rəsmi İrəvanın özünün Konstitusiyasında dəyişiklik etməsi, ATƏT-in Minsk Qrupunun fəaliyyətinə xitam verilməsi ilə bağlı qəti mövqe sərgiləməsi, Azərbaycana qarşı olan əsassız torpaq iddialarından əl çəkməsi və sülhün, sabitliyin davamlı, əbədi olmasına şərait yaratmasıdır.



### Nəqliyyat kommunikasiya imkanları...

Qeyd edək ki, müvafiq komissiyaların 10-cu görüşündən sonra Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan ayrıca olaraq nəqliyyat kommunikasiyaları məsələlərini müzakirə ediblər.

Bu fakt bir daha sübut edir ki, Azərbaycan - Ermənistan formatında ikitərəfli müzakirə platforması özündə kommunikasiya və bu kimi maraq doğuran digər məsələləri önə çıxarır. Bu danışıqlar isə nəticə etibarı ilə regional kommunikasiya əlaqələrinin yenidən bərpası pespektivi yaradır - regional səviyyədəki əməkdaşlıqlar yeni mərhələdə hətta qlobal inkişaf konsepsiyasının aparıcı coğrafi indeksi kimi müəyyənləşə bilər. Bu fakt qarşılıqlı inteqrasiyanı gücləndirən amil kimi çıxış etməklə yanaşı, regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir.

Bəllidir ki, Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırır və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Ermənistan ilə Azərbaycan arasında kommunikasiya qovşağının açılması, nəqliyyat imkanlarının gerçəkləşməsi yeni və çox mühüm gələcək vəd edir. Bu, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Dəhliz imkanları Ermənistana dəmir yolu xətti vasitəsilə dünyaya çıxmaq kimi bir üstünlük vəd edir.

***P.İSMAYILOV***

# Qlobal təhdidlərə qarşı...

## Azərbaycan erməni lobbisinin və əlaltılarının təzyiqlərindən çəkinmir

Milli maraqlara söykənən dövlətçilik fəlsəfəsinə malik, milli ideologiyaya bağlı, eyni zamanda, ədalət prinsiplərini özü üçün prioritet seçmiş cəmiyyətlər çox vaxt fərqli - ikili standarta məruz qalır. Lokal maraqların yaratdığı təhdidlərin hədəfinə çevrilən bu ölkələrin mövqelərinə təsir göstərmək üçün isə ənənəvi üsullarla yanaşı, yeni, müasir mexanizmlərdən istifadə olunur. Sanksiyalaşdırma və qadağalar, paralel olaraq müxtəlif siyasi vasitələrlə müdaxilə imkanları axtaran güc mərkəzləri həmin dövlətlərin əldə etdiyi nailiyyətlərdən, beynəlxalq hüquqa söykənən mövqeyindən narahatlıq keçirir. Məsələn, Cənubi Qafqazda son 4 ildə baş verən proseslər bunun sübutudur. Vətən müharibəsi, ardından isə antiterror tədbirləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyini təmin etdi - beynəlxalq hüquqa söykənən yeni reallıqlar bu gün tək regiondaxili prosesləri özündə assosasiya etmir, daha qlobal müstəvidə yayılma arealı formalaşdırır. Azərbaycan artıq bütün dünyada haqlı mövqeyinə görə tanınır, apardığı siyasət bəyənilir, gələcək üçün aydın və qlobal nəticələrə hədəflənən proqramı diqqət çəkir.

### Hədəf eyni, yollar fərqli...

Təbii ki, bu gün ortaya çıxan reallıqların ən mühüm detallarından biri təhlükəsizlik məsələsidir. Təəssüf ki, Qarabağın işğaldan azad edilməsi, müstəqil xarici siyasət kursu yürüdülməsi, bölgədə mühüm siyasi-iqtisadi situasiya formalaşdırması kimi addımlar Azərbaycanı yenidən antimilli güclərin hədəfinə gətirir. Xüsusilə, erməni lobbisinin nəzarətində olan dairələr, bu lobbinin əsirinə çevrilmiş Fransa kimi ölkələr, erməni mərkəzlərin təzyiqi ilə ölkəmizə qarşı ədalətsiz yanaşma sərgiləyən müvafiq strukturlar fərqli üsullarla öz təsir mexanizmini yaratmağa çalışır - bəziləri, vətəndaş cəmiyyəti üzərindən, bəziləri siyasi təşkilatların "əli" ilə bəziləri müasir kiberhücumlarla ölkəmizin maraqlarını hədəfə almağa çalışırlar. Amma ölkəmiz bütün bu hücumlara layiqincə cavab verir, əməli fəaliyyəti ilə bütün haqsızlıqlara qalib gəlir.

### Sanksiyalardan qorunmaq üçün...

Yeri gəlmişkən, noyabrın 4-də Sosial Tədqiqatlar Mərkəzinin (STM) təşkilatçılığı ilə "Parlamentlər və qlobal sanksiya tendensiyaları: qanunvericilik orqanında siyasi sanksiyalarla bağlı lobbiçilik beynəlxalq hüquqa maneədir" mövzusunda dəyirmi masa təşkil olunub. Tədbirdə STM-in "Dezinformasiyaya qarşı mübarizə: İfşa Detektoru" layihəsi çərçivəsində aparılmış növbəti tədqiqat "Azərbaycana qarşı sanksiyalarda erməni lobbiçiliyi və siyasi korrupsiya. Şəbəkə. Faktlar. İfşa." adlı kitab təqdim edilib. Tədbirdə çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc bildirib ki, hərb meydanında məğlub olan Ermənistan müxtəlif yollarla Azərbaycandan qisas almağa çalışır. Onun sözlərinə görə, dünyada heç vaxt indiki qədər parçalanma və qütbləşmə olmayıb. Ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarının əsas məqsədi Qələbəmizi əlimizdən almaq, onu gözdən salmaq, Azərbaycanın regiondakı nüfuzunu zədələməkdir.

Deputat əlavə edib ki, Qarabağ Zəfərindən sonra ABŞ Konqresində Azərbaycana qarşı kampaniya aparanların maliyyə yardımı artırılır. "Son 35 ildə məruz qaldığımız 907-ci düzəlişə baxmayaraq, yerləşdiyimiz bölgədə genişmiqyaslı sanksiyalara məruz qalmayan tək ölkəyik. Prezident İlham Əliyev strateq kimi Azərbaycanı beynəlxalq iqtisadi-siyasi cəza və qadağalardan qoruyur", - deyə STM-in sədri vurğulayıb. O, sanksiyalardan qorunmaq üçün İrəvan-Bakı qarşıdurmasına son qoyulmasının vacib olduğunu deyib.




### Erməni lobbisinin təzyiq "alətləri"...

Milli Məclisin deputatı, "Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya"nın sədri Ramid Namazov "COP29-da ölkəmizə yekdil dəstək: beynəlxalq münasibətlər sistemində Azərbaycanın nüfuzunun göstəricisi və erməni lobbisinin zəifliyi" mövzusunda çıxış edərək Azərbaycanın beynəlxalq arenada artan nüfuzuna diqqət çəkib. R.Namazov qeyd edib ki, ölkəmizə göstərilən bu geniş dəstək, Azərbaycanın dünya səhnəsində mövqeyinin gücləndiyini və erməni lobbisinin təsir imkanlarının zəiflədiyini nümayiş etdirir.

Milli Məclisin deputatı Fariz İsmayılzadə isə Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində qazandığı Zəfərin bir çox dairələri qıcıqlandırdığını vurğulayıb. O bildirib ki, torpaqlarımızı azad edəndə də, işğala məruz qalanda da sanksiyalara məruz qalmışıq. Bunun da əsasında erməni lobbisinin fəaliyyəti və din amilinin böyük rolu var. Bu prosesə isə QHT-lər və media mənsubları cəlb olunur".

Qeyd edildiyi kimi, Azərbaycan həm işğala məruz qaldığı 30 il müddətində, həm də BMT TŞ-nin məlum qətnamələrinin yerinə yetirilməsini istə edərkən sanksiya ilə "hədələnir" - Ermənistandan isə nə işğal faktına görə, nə də 30 illik işğal dövründə həyata keçirdiyi vandalizm aktlarına görə hesabat tələb edən yoxdur. Azərbaycanın qəti mövqeyinə təsir göstərə bilməyəcəklərini görən həmin dairələr fərqli üsullarla ölkənin daxilində özünün "şəbəkəsini" qurmağa niyyətlənir. Vurğulandığı kimi, bu məsələdə daha çox vətəndaş cəmiyyəti sektoruna, mediaya "istinad olunur". Ötən dövr ərzində bəzi "media təmsilçiləri"nin, vətəndaş cəmiyyəti institutu pərdəsinin arxasında gizlənən "QHT"-lərin bu kimi fəaliyyətləri ifşa edilib - bu isə lobbiçilərin, erməni təəssübkeşlərinin antimilli fəaliyyətdən əl çəkmək niyyətində olmadığının göstəricisidir. "Beynəlxalq" adı altında gizlənən, əslində, isə milli maraqlara qarşı fəaliyyət göstərən fondların maliyyə dəstəyi ilə ərsəyə gələn həmin şəbəkə erməni mənafeyinin "danışan dilinə" çevrilir. Qarabağ Universitetinin açılışında çıxış edən Prezident İlham Əliyev böyük güclərin ölkəmizə qarşı olan təzyiqlərindən danışmış və bildirmişdi ki, onların bir başqa tezisi o idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır: "Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik. Ona görə bu günə qədər bizə qarşı əsassız ittihamlar, təzyiqlər edilir".

### Kiberhücumlara qarşı tədbirlər...

Tədbirdə diqqət mərkəzinə düşən məqamlardan biri də son dövrlərdə aktuallığını qoruyan kiberhücumlar məsələsi olub. F.İsmayılzadə bu məsələyə toxunaraq qeyd edib ki, ermənilər və digər anti-Azərbaycan qüvvələr ölkəmizin bank sisteminə, enerji təhlükəsizliyinə qarşı kiberhücumlar edirlər. Belə hücumlar gələcəkdə daha təhlükəli xarakter ala bilər ki, bu da Qarabağa qarşı iddiaları özündə ehtiva edir. Ona görə də yeni təhdid formalarına hazır olmalıyıq.

Bəli, son dövrlərdə daha çox diqqət ayılan məsələlərdən biri məhz kiberhücumlar məsələsidir. Antimilli, ermənipərəst dairələrin COP29-u fürsət bilərək bu kimi kiberhücumlar təşkil etməyəcəyi istisna olunmur - bu məqsədlə, mühüm tədbirlər həyata keçirilir. Məsələn, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin məlumatına görə, tədbirin yüksək səviyyədə təşkili üçün əsas informasiya ehtiyatı "COP29.az" və hazırda 800-dən çox istifadəçisi olan elektron poçt xidməti xüsusi olaraq dövlət hostinq və mail sisteminə miqrasiya edilib və Xidmət tərəfindən 24/7 rejimində monitorinqi həyata keçirilməkdədir. Bununla yanaşı, "AzStateNet" dövlət şəbəkəsi üzərindən keçən COP29 trafikinin kiberhücumlara və anomal hadisələrə qarşı mütəmadi monitorinqi təşkil edilib. Beləliklə, ermənipərəst qüvvələrin COP29-dan istifadə edərək ölkəmizə qarşı hər hansı bir kibertəhdid həyata keçirməsinin qarşısı ən yüksək səviyyədə alınır...

### 907-ci "haqsızlıq"...

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Mübariz Qurbanlı Azərbaycanın işğal edilmiş ölkədən qalib ölkəyə qədər keçdiyi yola, Qarabağ Zəfərindən sonra müşahidə edilən sanksiya fəallığının dinamikasına nəzər salıb. Bildirib ki, ABŞ dünyada ən çox sanksiya tətbiq edən ölkə olaraq öz məqsədlərinə çatmaq istəyir. Onun sözlərinə görə, ABŞ-ın haqsız olaraq tətbiq etdiyi 907-ci düzəlişin qəbul edilməsi erməni lobbisinin təsirinin və Amerikanın geosiyasi baxışlarının nəticəsidir.

Sirr deyil ki, ABŞ "sanksiyalaşdırma"nı əlində soyuq silaha çevirib. Adıçəkilən "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəliş ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını qadağan edən bir sanksiyadır - erməni lobbisinin təşəbbüsü ilə qəbul edilən bu qadağa Azərbaycana iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardımların qarşısını aldı. Təəssüfləndirici haldır ki, bu haqsızlıq hələ də davam edir - düzəlişin "müəllifləri" isə yeni dövrdə, yeni təzyiq formaları yaratmağa çalışırlar. Çünki 30 illik nümunə göstərdi ki, Azərbaycan hər hansı bir təzyiqə heç zaman boyun əyməyib...

**P.SADAYOĞLU**

# COP29 üçün müvəqqəti gömrük nəzarət zonası

## Sürətli keçid sistemi iştirakçıların asan gömrük rəsmiləşdirilməsini təmin edəcək

Ölkəmizdə keçiriləcək COP29 sammiti ilə əlaqədar müəyyən edilmiş tədbirlər planında ən mühüm istiqamətlərdən biri də xarici ölkələrdən gələn nümayəndə heyəti və iştirakçıların sürətli keçidinin və asan gömrük rəsmiləşdirilməsinin təmin edilməsidir. Həmin tapşırıqların icrası ilə bağlı Dövlət Gömrük Komitəsi tərəfindən "COP29 - Gömrük Komissiyası" yaradılıb. Komissiya COP tədbirləri üçün Azərbaycana səfər edən qonaqlara məxsus əşya və avadanlıqların rəsmiləşdirilməsinin sürətləndirilməsi üçün Bakı Olimpiya Stadionunun ərazisində "COP29 - müvəqqəti gömrük nəzarət zonası" təşkil edilib. Həmin zonada təmassız texnologiya infrastrukturu qurulub ki, bu, COP29 tədbiri zamanı lazım olan zəruri avadanlıqlar, material və qurğular, habelə media orqanlarının texnika və ləvazimatlarının gömrük məntəqəsində rəsmiləşdirilməsini qısa zaman intervalında həyata keçirməyə imkan verir.

### Beynəlxalq təcrübəyə əsaslanan təmassız yoxlamalar

Qeyd edək ki, BMT-nin tövsiyələrinə əsasən, COP sammitlərində iştirak edən heyətlərin bütün üzvlərinin tədbirin keçirildiyi ölkəyə gəlişini tez və rahat şəkildə təmin etmək üçün hava nəqliyyatı və mülki aviasiya sektorlarında, sərhəd-keçid məntəqələrində xüsusi tədbirlər və prosedurlar icra olunur. Xarici qonaqların sammit ölkəsinə səfərini daha əlçatan etmək üçün beynəlxalq səviyyədə asanlaşdırıcı gömrük rejimləri tətbiq olunur. Gömrük zonaları həmin tədbirlər proqramının bir hissəsidir və gömrük orqanları texnoloji potensiallardan istifadə etməklə daha çevik idarəetmə sistemini tətbiq etməyə hazırlanır. Nəzarət və buraxılış seqmentlərinə əlavə elektron xidmət kanalları əlavə olunur.

Bu planın bir hissəsi kimi keçid məntəqələrində "mavi" və "yaşıl zona"lar təşkil edilir ki, bu zonalarda ən innovativ cihazlar, sensor otaqları, sürətli gömrük emalı qurğuları quraşdırılır. Məsələn, COP28-in keçirildiyi Birləşmiş Ərəb Əmirliyində, yaxud COP-27-nin təşkil olunduğu Misirdə dövlət və hökumət üzvləri üçün "yaşıl zona", digər iştirakçılar üçün "mavi zona" bölmələri yaradılmışdı. Eləcə də bəyannamə sistemi tamamilə təkmilləşdirilərək qısa və sadə bəyannamə formaları tərtib edilmiş, habelə konfransda media fəaliyyəti üçün tələb olunan mallarının "e-customs" portalı vasitəsilə bəyan edilməsi üçün ayrıca elektron resurslar formalaşdırılmışdı. Həmçinin tədbir iştirakçılarına məxsus əşya və ləvazimatların təmassız qəbulu prosesi həyata keçirilib. Xüsusi elektron müşahidə kameralarından istifadə etməklə gömrük və sərhəd xidməti orqanı əməkdaşının fiziki təması olmadan aparılan bu yoxlamalar zamanı xüsusi cihazlardan istifadə olunur.

Azərbaycan hökuməti qeyd edilən bütün bu yenilikləri tətbiq etmək üçün ötən aylarda COP29 Təşkilat Komitəsinin tapşırığına əsasən, tədbirlər planı hazırlayıb və plana uyğun olaraq aidiyyatı qurumların əməkdaşları təlim və seminarlar vasitəsilə bu prosedurları tam mənimsəyərək lazımı təcrübə toplayıb. Həmin təkmil bilik və təcrübələrə əsasən, lazımi elektron avadanlıq və nəzarət-müşahidə cihazları əldə edilib, gömrük sistemində təmassız yoxlam rejimləri təmin olunub, eyni zamanda, gömrük prosedurlarını ən qısa və sürətli tezlikdə həyata keçirən asan keçid mexanizmi infrastrukturları qurulub.




### "COP29 Xüsusi Viza"sının alınması...

Onu da qeyd edək ki, COP29-da iştirak edəcək şəxslərin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə gömrük zonalarında nəzarəti həyata keçirilən əməkdaşları ən son texnoloji imkanlara cavab verən baxış-rentgen texnikaları, mobil və stasionar yoxlama baxış sistemləri, baqaj yoxlama cihazları və digər texniki nəzarət vasitələri ilə də təmin edilib. Heydər Əliyev Beynəlxalq Hava Limanında COP29-a hazırlıq çərçivəsində konfrans iştirakçıları üçün xüsusi giriş vizalarının terminallar vasitəsilə qeydiyyat prosesi təkmilləşdirilib, yoxlanış məntəqələrinin sayı artırılıb, xüsusi təhlükəsizlik qurğuları yerləşdirilib. Bu amil də Azərbaycanda təhlükəsizliyin ən etibarlı və yüksək səviyyədə təşkilini təsdiqləyir.

Bundan başqa, qonaqların hələ səfərdən əvvəl elektron gömrük sistemində çox rahat və ani vaxt tezliyində zəruri məlumatları yerləşdirməsi və qeydiyyatdan keçməsi üçün operativ e-infrastruktur yaradılıb. Qonaqlar "COP29 Xüsusi Viza"sını həm rəsmi elektron viza portalı, həm də Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə əldə edə bilirlər. Asan gömrük rejiminə əsasən, COP-a gələn şəxslərin özləri ilə gətirəcəkləri əşyaların elektron qaydada öncədən bəyan edilməsi prosesində də təkmilləşdirilmələr aparılıb. Belə ki, sadələşdirilmiş gömrük bəyannamələrinin daha asan və sürətli tərtib eilməsi məqsədilə komitənin müvafiq portalında media nümayəndələri üçün mal adlarının qısa yol keçidləri hazırlanıb, Həmçinin bəyannamələrin təsdiqinin "QR kod"la həyata keçirilməsi mexanizmi təmin edilib.

Bundan başqa, tədbir iştirakçılarının və ölkəmizə gələn qonaqların gömrük qaydaları ilə bağlı məlumatlandırılması məqsədilə gömrük sərhədindən keçirilən mallarla bağlı qanunvericiliyin tələblərinə dair məlumatlandırıcı və izahedici videoçarxlar hazırlanaraq komitənin rəsmi internet səhifəsində yerləşdirilib, həmçinin "cop29.az" rəsmi internet saytına inteqrasiya olunub.

Beləliklə, Azərbaycan beynəlxalq COP təcrübəsinə əsaslanaraq gömrük yoxlama və rəsmiləşdirilməsi prosesini maneəsiz və sürətli rejimdə təmin etmək üçün sərhəd-keçid zonalarında bütün infrastrukturlarını hazır vəziyyətə gətirib. Gömrük zonasında çevik və sadələşdirilmiş idarəetmə sistemi yaşıl xətt sxemi üzrə sərnişinlərə məxsus mal və əşyaların tez bir zamanda keçidini başa çatdırmağa imkan verir.

**E.CƏFƏRLİ**

# Bakıdan-dünyaya yeni beynəlxalq media kanalı

4 noyabr 2024-cü ildən etibarən qlobal xəbər və analitika sahəsində alternativ baxışı təqdim edən ANEWZ beynəlxalq televiziya kanalı fəaliyyətə başlayır. Həftənin 7 günü, 24 saatlıq efir yayımında aparıcı media platformalarında indiyədək o qədər də çox eşidilməyən və ya fərqli təqdim olunan - Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionunun səsi Bakıdan-dünyaya çatdırılacaq.

12-dən çox ölkədə təmsilçisi ilə 110-dan çox ölkəyə yayımlanan ANEWZ peyk, rəqəmsal, sosial media kanalları vasitəsi ilə izlənilə bilər.

Böyük Britaniya, ABŞ, İspaniya, Portuqaliya, Ukrayna, Türkiyə, İordaniya, Nigeriya, Zambiya və digər ölkələrdən media sahəsində geniş təcrübəsi olan jurnalistlər yaradıcı heyətə daxildirlər.

Beynəlxalq ingilisdilli kanal kimi ANEWZ yüksək jurnalistika standartlarını, o cümlədən beynəlxalq və yerli istedadları bir araya gətirir. Kanalın əsas məqsədlərindən biri də Azərbaycanda ingilisdilli jurnalistikanın inkişafına töhfə verməkdir.

www.anewz.tv

https://www.instagram.com/anewz.tv/profilecard/?igsh=MWNubzAydDI5bTc3cQ%3D%3D

https://x.com/anewz_tv?s=21

https://www.linkedin.com/company/anewz/posts/?feedView=all

https://www.facebook.com/p/anewz-61561936261670/?mibextid=LQQJ4d

https://www.youtube.com/@anewz_tv

# Avropada müsəlman olmağın çətinliyi

Bu gün zaman-zaman bəşəriyyətə çoxlu sayda mütərəqqi dəyişikliklər gətirmiş, yeniliklərə yol açmış Avropada geriyə qayıdışı - milli-dini-irqi ayrı-seçkiliyin eybəcər təzahürlərinin baş qaldırdığını, xüsusilə də İslamofobiyanın geniş vüsət aldığını izləmək çox kədərlidir. Bu günlərdə Avropa İttifaqının (Aİ) Fundamental Hüquqlar Agentliyi (FRA) Aİ-yə üzv olan 13 ölkədə 9600 müsəlman iştirakı ilə keçirdiyi "Avropada müsəlman olmaq. Müsəlmanların təcrübələri" adlı sorğunun nəticələrini açıqlayıb. FRA bildirir ki, İttifaqa üzv ölkələrdə müsəlmanların təxminən yarısı gündəlik həyatlarında ayrı-seçkilik və nifrət ritorikası ilə üzləşir.

## Müqəddəs dəyərlər manipulyasiya predmetinə çevrilir

Bütün səmavi dinlər kimi, İslam dini də bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Bu dinin təməlində və ideologiyasında milli-dini fərqliliyə görə insanlar arasında ayrıcı xətlər çəkilmir, nifrət, şiddət aşılanmır, əksinə insanlara birgəyaşayışa, barışığa çağırış edilir. Belə bir saf dini aşağılamaq bütün əxlaq və insanlıq normasını aşmaq anlamına gəlir. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta müqəddəs dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan "qoca qitə"də bir sıra hallarda dini təəssübkeşliyə və dözümsüzlüyə çağırışlar edilir, İslamofobiya getdikcə daha çox dərəcədə həyat normasına çevrilir. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. Son illərdə Yaxın Şərqdə əsasən İslam dininə sitayiş edən insanların yaşadıqları coğrafiyalarda kədərli münaqişələr yaşanır, qanlı müharibələr səngimək bilmir, insanlar həyatlarını itirirlər. Bu münaqişələrin və müharibələrin ssenariləri isə bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan, raket zərbələrindən xilas olamaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır.

Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrini payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı, demokratiya göstəricisi kimi qələmə verilir ki, bu da qəbuledilməzdir.

Deyə bilərik ki, Fransa, Niderland kimi ölkələrdə İslamofobiya hətta bu və ya digər formada rəsmi səviyyədə təşviq edilir. Fransanın onilliklər boyunca Afrikada davam etdirdiyi müstəmləkə siyasətinin həm də irqçiliyə əsaslandığı heç kəsə sirr deyil. Bunun təzahürləri-ni, həmçinin ölkədə İslam dininə etiqad bəsləyən insanların diskriminasiyaya məruz qalmalarında müşahidə etmək mümkündür. Bunu Fransa cəmiyyətinin təmsilçiləri də etiraf edirlər. Bu ölkədə müxtəlif auditoriyalarda müsəlmanların Fransa cəmiyyətini zəbt etmələrinə dair məqsədli mesajlar verilir. Eyni zamanda, İslam dininə mənsub insanlardan məsafə saxlanılır və onlar potensial terrorçu kimi təqdim edilirlər.

Fransanın siyasi hakimiyyəti İslam dünyasına nifrətlə yoğrulan münasibətini adətən bu ölkədə nəşr olunan "Charlie Hebdo" jurnalı vasitəsilə ifadə edir. Deyə bilərik ki, bu nəşr Fransa rəsmilərinin danışan dillərinə və görən gözlərinə çevrilib. Nəşrin səhifələrində dəfələrlə İslam dinini, Məhəmməd peyğəmbəri ələ salan karikaturalar yerləşdirilib. Bunu həm də Fransanın siyasi hakimiyyətinin mövqeyi kimi qəbul etmək mümkündür. Ötən il Türkiyədə dağıdıcı zəlzələ baş verdikdə "Charlie Hebdo" nəşri sosial şəbəkələrdə təbii fəlakətlə bağlı nifrət dolu paylaşım edib. Nəşrin hazırladığı karikatura jurnalın "Tvitter" hesabında "Günün fotosu" həştəqi ilə paylaşılıb. Paylaşılan fotolara "Türkiyədə zəlzələ", "Tank göndərməyə ehtiyac yoxdur" yazıları ilə şərhlər verilib.

Bir sözlə, Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə paralel şəkildə, İslama sitayiş edən insanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya mövqeyini ortaya qoyur, müxtəlif İslamofob kampaniyalar təşkil edir. Bu ölkədə "dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edilməsi də adi hal alıb. Eyni zamanda, məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.




Fransa kimi ölkələrin apardıqları İslamofobiya siyasəti, həmçinin bir sıra Avropa təsisatlarına da sirayət edib. Qərbdə fəaliyyət göstərən ayrı-ayrı təşkilatlar sözün əsl mənasında "xristian klubu" rolunda çıxış edirlər. Bu gün Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası İslamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevriliblər.

## Müsəlmanların həyatın bütün sahələrində rast gəldikləri diskriminasiya

Tədqiqatda qeyd olunur ki, diskriminasiya xarakterli siyasi kurs və hərəkətlər Avropa müsəlmanlarının gündəlik həyatının bütün aspektlərinə - məşğulluq, təhsil, mənzil və biznes sahələrinə mənfi təsir edir.

2021-ci ilin sentyabrından 2023-cü ilin oktyabrına qədər aparılan tədqiqatda Avstriya, Belçika, Danimarka, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, İspaniya və İsveç də daxil olmaqla Aİ-nin müxtəlif üzv dövlətlərində yaşayan müsəlmanlar iştirak ediblər. Məlum olub ki, hesabat dövründə Avropada irqçiliklə üzləşdiyini bildirən müsəlmanların nisbəti 39 faizdən 47 faizə çatıb. Ayrı-seçkilik halları ən çox Avstriya, Almaniya və Finlandiyada qeydə alınıb. Hesabatda müsəlmanların Avstriyada (71 faiz), Almaniyada (68 faiz), Finlandiyada (63 faiz), İsveçdə (22 faiz), İspaniyada (30 faiz) və İtaliyada (34 faiz) ayrı-seçkiçiliyə məruz qaldıqları diqqətə çatdırılıb.




Avstriya və Almaniyada irqçilik və ayrı-seçkiliyin artması bu ölkələrdə ifrat sağçı siyasətin böyüməsi ilə əlaqələndirilir. Tədqiqat müəllifləri qeyd edirlər ki, müsəlmanlar Avropada peşəkar və sosial həyatlarında müxtəlif statistik fərqlərə baxmayaraq, geyimləri, etnik kimlikləri və ya inancları ilə bağlı "həyəcanlı dərəcədə geniş yayılmış irqçilik dalğası" ilə üzləşirlər. Avropada doğulan müsəlmanların yarıdan çoxu iş axtarışları zamanı irqinə görə ayrı-seçkiliyə məruz qaldıqlarını bildirirlər ki, bu da oxşar dil qabiliyyətləri və səriştələri olan şəxslərlə müqayisədə onlara bərabər münasibət bəslənilmədiyini göstərir.

Hesabatda vurğulanır ki, hicab kimi dini simvollar taxan qadınlar xüsusilə işdə daha çox ayrı-seçkiliklə üzləşirlər; onların 45 faizi biznes mühitində ayrı-seçkiliyə məruz qalır ki, bu da 2016-cı ildəki 31 faiz göstəricisindən çoxdur. Müsəlman avropalılar həm də mənzil almaq və ya kirayə vermək istədikləri zaman çətinliklərlə üzləşirlər. İştirakçıların təxminən 35 faizi ayrı-seçkilik səbəbindən problem yaşadıqlarını bildirirlər. Halbuki, 2016-cı ildə belə şikayətlər cəmi 22 faiz olub.

Tədqiqat vurğulayır ki, çox az iştirakçı ayrı-seçkilik barədə səlahiyyətlilərə məlumat çatdırılmasının müsbət nəticələr verəcəyinə inanır.

***Mübariz FEYİZLİ***

# ABŞ-ın aşağı pul siyasəti...

## FED-in uçot dərəcələrini endirməsi qlobal iqtisadiyyatda gərginlikləri artırır

**ABŞ-ın Mərkəzi Bankı funksiyasını yerinə yetirən Federal Ehtiyatlar Sistemi (FED) noyabrın 7-də keçiriləcək iclasında faiz dərəcələrini 25 baza bəndi azaltmağı planlaşdırır. "Reuters"in sorğusuna əsasən, iqtisadçıların mütləq əksəriyyəti, təxminən 90 faizi bu qərarın ardınca FED-in dekabr iclasında da oxşar addımın atılacağını gözləyir. Mərkəzi Bankın növbəti iclası ölkədə keçiriləcək Prezident seçkilərindən sonrakı iki günə təsadüf edir və analitiklər seçkilərdən sonra hökumətin monetar siyasətində yumşalmaya doğru istiqamətin götürüləcəyini proqnozlaşdırırlar. Ehtimallara görə, noyabr və dekabr aylarındakı azalmalardan sonra ABŞ-da federal fondların dərəcəsi 4,25-4,50 faiz civarında ola bilər.**

## Mərkəzi Bank investorları daha çox pul xərcləməyə məcbur edir

Qeyd edək ki, Federal Ehtiyatlar Sistemi sentyabrın sonlarında qəbul etdiyi qərarla ABŞ-ın pul siyasətində kəskin dəyişiklik edərək son 4 ildə ilk dəfə baza uçot dərəcəsini azaldıb. Uçot dərəcəsi 0,5 faiz azaldılaraq 5,25-5,5 faiz dərəcəsindən 4,75-5 faiz dərəcəsinə endirilib. FED-in bu addımı atmaqda əsas məqsədi aşağı inflyasiya mühitində iqtisadiyyatda müşahidə edilən geriləməni aradan qaldırmaq və maliyyə-bank sistemini daha aşağı uçot dəhlizi çərçivəsində iqtisadiyyata böyük pul axınlarını, investisiyaları təmin etməkdən ibarət olub. ABŞ-da 2024-cü ildə iqtisadiyyatda inkişaf templəri azalmağa başladığından iqtisadi strukturların aktivliyi, biznesin fəallığı da aşağı düşüb, bank və sığorta, investisiya şirkətlərinin real iqtisadiyyata maliyyə ayırmaları da azalıb.

Hökumətin makroiqtisadi inkişaf proqnozlarına əsasən, iqtisadi artımın ilin sonunda bir qədər də yavaşayacağı gözlənilir və 2025-ci il üçün iqtisadi artım 2 faiz səviyyəsinə düşəcək. Proqnozlarda dəyişikliklər ölkənin məşğulluq göstəricilərinə də təsir edir, hökumət işsizlik üzrə proqnozu 2024-cü ildə fərz edilən 4 faizdən 4,4 faizə, 2025-ci il üçün gözlənilən 4,2 faizdən 4,5 faizə yüksəldib.

Bütün bunların müqabilində ABŞ-da inflyasiya xeyli azalıb. Bunun səbəbi iqtisadi aktivliyin və pul bazarı alətlərinin daralmasıdır, bu ölkədə investisiyaların və kreditlərin, pul bazarının həcmlərinin azalması qiymət indekslərinə çox ciddi təsir göstərir. Xüsusilə də ölkədəki əmək məhsuldarlığının və maliyyə bazasının azalması, biznesin və ticarətin əlavə sərmayə qoyuluşlarının aşağı düşməsi inflyasiyanı da səngidir. FED-in uçot dərəcələrini aşağı salmasında da məhz bu amillər rol oynayır.

Ona görə də ABŞ Mərkəzi Bankı aşağı faiz dərəcəsi stavkasını dəstəkləməklə ölkənin maliyyə-bank sektorunda daha sərfəli və ucuz kredit mühitini təmin etmək, maliyyə qurumlarını əlverişli faiz dəhlizi çərçivəsində iqtisadiyyata böyükhəcmli pul buraxmasını stimullaşdırmaq məqsədi güdür. FED hesab edir ki, maliyyə sektoru və investorlar bazara çoxlu pul və qiymətli kağızlar emissiya etməklə iqtisadi canlanmanı, alıcılıq və istehlak dövriyyəsini artıra bilər ki, bu da yığımların böyüməsinə imkan verə bilər.



## FED-in yumşaq siyasəti qızılın qiymətini rekord həddə yüksəldib...

FED-in aşağı dərəcəli faiz stavkası qlobal bazarlara müəyyən təsirlərini də göstərə bilər. Necə ki, sentyabr qərarı qlobal bazarlarda kifayət qədər ajiotaja səbəb oldu və dünya birjalarında maliyyə və investisiya alətlərinin, əsas əmtəə və qiymətli metalların qiymətlərində dəyişikliklər baş verdi. Dolların və aparıcı investisiya alətlərinin, səhmlərin ucuzlaşması, qızılın isə bahalaşması müşahidə edildi və bu proses hələ də davam edir. Xüsusilə də son bir neçə gündə qızılın qiyməti rekord səviyyəyə çatıb. Bu qiymətli metalın bir unsiyası oktyabrın 30-da 2800 dollar həddini də keçib və yeni rekord vurub. Nyu-Yorkun "Comex" birjasında gözlənilməz ən yüksək qiymətlər qeydə alınıb. Bank ekspertləri 2024-cü ilin dördüncü rübündə qızılın orta qiymətinin bir unsiya üçün 2800 dollar, 2025-ci ilin dördüncü rübündə isə bir unsiya üçün 3000 dollar olacağını gözləyirlər. Ümumdünya Qızıl Şurasının hesablamalarına görə, birjadankənar əməliyyatlar nəzərə alınmadan qızıla qlobal tələb 2024-cü ilin üçüncü rübündə 1176,5 ton təşkil edib ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə təxminən 35 faiz artım deməkdir.

Avstraliyanın "Commonwealth Bank"ının (AMB) analitiki Vivek Dharın sözlərinə görə, qızılın qiymətinin artması ABŞ-da prezident seçkiləri ilə bağlı qeyri-müəyyənlik fonunda ən etibarlı aktivlərə tələbin ümumi artımı ilə bağlıdır. Eyni zamanda, FED faiz siyasəti bu bazarı gərginləşdirir. Belə ki, FED faiz dərəcələri artırdıqda qızılın qiyməti ucuzlaşır, faiz stavkasını aşağı saldıqda isə bahalaşır.

Göründüyü kimi FED-in aşağı faiz siyasəti ABŞ-ın investisiya bazarlarında və birjalarında ənənəvi sindrom kimi maliyyə və investisiya alətlərinə ciddi təsirlərini göstərir. Ona görə də, qarşıdakı mərhələlərdə Mərkəzi Bankın faiz dərəcələri ilə bağlı qərarları təkcə bu ölkəninin səhm və investisiya sektorlarına deyil, qlobal bazarlara da təsirsiz ötüşməyəcək. Yuxarıda da vurğuladığımız kimi daha çox qızıla investisiya kimi qlobal marağın artması dərinləşəcək və bu sənaye sahəsi investorlar üçün digər investisiya alətlərdindən cəlbedici olacaq. Qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı daha məqsəduyğun sayacaq, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edəcəklər.

## İri maliyyə holdinqləri aşağı uçot dərəcələrini istəmir...

Ekspertlər hesab edir ki, FED-in pul siyasətində yüksəldici deyil, endirici faiz parametrlərinə üstünlük verəcəyi istisna olunmur. Qarşıdakı dövrdə aşağı uçot siyasətinin yürüdüləcəyi, 2024-cü ilin sonunda yenidən aşağı faiz dəyişikliyi gözlənilir. Hətta 2025-ci ilin sonuna kimi faiz dəhlizinin mərhələlərlə 3,4 faizə qədər endiriləcəyi bildirilir. Bu isə 2024-cü ilin əvvəlindəki 5,5 faizlik stavkanın az qala yarıbayarı azaldılması deməkdir. Bunun ABŞ və qlobal bazarlar üçün hansı əlavə təsirlərinin olacağını güman etmək çətin deyil.

Məsələ ondadır ki, Amerikada bir çox iqtisadçı FED-in sərt pul siyasətinə keçməsini tələb edir. Məşhur "Jefferies" qrupunun baş iqtisadçısı Tomas Simons qeyd edib ki, ABŞ iqtisadiyyatının artıq pul siyasətinin yumşaldılmasına ehtiyacı yoxdur, əvvəlki monetar modelə qayıtmaq məqsəduyğundur. Nüfuzlu maliyyə bloku olan "Societe Generale"nin eksperti Stefen Gallaher isə FED üçün borclanma xərclərinin orta səviyyədə azaldılmasını uyğun addım hesab edir.

Mərkəzi Bankın hansı iqtisadi xətt yürüdəcəyi isə sözsüz ki, Prezident seçkilərindən sonra daha aydın olacaq. Çünki FED-in qərarlarında ölkədəki daxili proseslərin və siyasi amillərin təsiri az rol oynamır. Mövcud hökumət aşağı faiz dəhlizində təkidli olmağına baxmayaraq, iri maliyyə holdinqləri, korporasiyalar yumşaq uçot dərəcələrinin davam etməsini istəmirlər.

***E.CƏFƏRLİ***

# 47-ci prezident kim olacaq?

## Donald Tramp, yoxsa Kamala Harris?

## Bu gün ABŞ-da 60-cı prezident seçkiləri keçirilir

**Bu gün ABŞ-da növbəti prezident seçkiləri keçirilir. Seçkilərdə mübarizə keçmiş prezident, respublikaçıların namizədi olan Donald Tramp və indiki vitse-prezident, demokratların namizədi Kamala Harris arasında gedir.**

### Namizədlərin şansları bərabərdir

NBC Nyus-un seçkidən iki gün öncə keçirdiyi sorğuya əsasən, demokrat Kamala Harris və respublikaçı Donald Trampın şansları bərabərdir. Harrisin dəstəyinin bir neçə amillə bağlı olduğu bildirilir. Birincisi, onun "abort hüququ" ilə bağlı əhəmiyyətli üstünlüyü var. Bundan əlavə, medianın məlumatına görə, Harris bir çox seçici tərəfindən orta təbəqənin müdafiəçisi kimi qəbul edilir.

Eyni zamanda, vurğulanır ki, Trampın dəstəyi getdikcə artır, çünki seçicilərin əksəriyyəti ölkənin hazırkı kursundan narazıdır. Respondentlərin təxminən üçdə ikisi ABŞ-ın yanlış yolda olduğuna inanır. Seçicilər, həmçinin bir çox amerikalılar üçün ən vacib olan iqtisadi məsələlərdə Trampın əhəmiyyətli üstünlüyünə işarə edirlər.

"YouGov" sosioloji tədqiqat institutunun "The Times" qəzetinin sifarişi ilə keçirdiyi ictimai rəy sorğusunun nəticələrində isə deyilir ki, Demokratlar Partiyasının prezidentliyə namizədi Kamala Harrisin səsvermədə tərəddüd edən ştatlarda qalib gəlməsi üçün kifayət qədər dəstəyi var. Bu dəstək ona respublikaçı rəqibi Donald Trampı məğlub etməyə imkan verə bilər. Məlumata görə, ABŞ-ın hazırkı vitse-prezidenti Kamala Harris az fərqlə "ABŞ-ın ilk qadın prezidenti olmağa yaxındır". O, Viskonsin ştatında respublikaçı rəqibini dörd faiz (49 faizə qarşı 45 faiz), Miçiqan və Pensilvaniyada üç faiz (49 və 46 faiz), Nevada ştatında bir faiz (48 və 47 faiz) qabaqlayır. Arizonada namizədlərin dəstəyi bərabərdir (hər ikisi 48 faiz). Corciya və Şimali Karolina ştatlarında isə ABŞ-ın sabiq prezidenti Donald Tramp populyarlıq səviyyəsinə görə rəqibindən bir faiz (48 faizə qarşı 47 faiz) irəlidədir. "YouGov" sosioloji tədqiqat institutu Kamala Harrisin Ağ Evə 2000-ci ildə respublikaçı Corc Buşun demokrat Albert Qora qalib gəldiyi seçkilərdən bəri ən az fərqlə rəhbərlik edəcəyini proqnozlaşdırır.




### 75 milyondan çox seçici erkən səs verib

Qeyd edək ki, ABŞ-da prezident seçkilərində qələbə sadə səs çoxluğu ilə deyil, Konqresdə təmsilçilikdən asılı olaraq hər bir ştatın irəli sürdüyü seçicilər kollegiyası tərəfindən müəyyən olunur. Artıq milyonlarla seçici erkən səsvermədə iştirak edib. Florida Ştatı Universitetinin məlumatlarına əsasən, ABŞ-ın 75 milyondan çox seçicisi prezident seçkilərində erkən səs verib. Belə ki, 75 093 872 nəfər erkən seçki hüququndan istifadə edib. Onlardan 40.7 milyondan çoxu şəxsi olaraq seçki məntəqələrində, təxminən 34.4 milyon isə poçtla səs verib.

ABŞ-da qeydiyyatdan keçmiş seçicilərin sayı təxminən 168 milyon nəfər təşkil edir. Ən çox erkən səs verənlər Texas (8,6 milyon), Florida (7,8 milyon), Kaliforniya (7 milyon), Şimali Karolina (4,2 milyon) və Corciya (4 milyon) ştatlarında olub.

### ABŞ-dan köçmək istəyənlərin sayı niyə artıb?

"Bloomberg" agentliyinin isə yazır ki, ABŞ-da prezident seçkiləri ərəfəsində xarici ölkəyə köçmək istəyən vətəndaşların sayı artıb. Araşdırmaya əsasən, miqrasiya məsələlərində ixtisaslaşmış şirkətlər artıq iyun ayında Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp və ABŞ-nin indiki prezidenti Cozef Baydenin iştirak etdiyi debatlardan sonra müştərilərinin sayının artması ilə qarşılaşıblar. "Expatsi" şirkətinin təsisçisi Cen Barnett nəşrə bildirib ki, son həftələrdə seçki sorğularının nəticələri tez-tez dəyişir və bu, miqrasiyaya böyük təsir edib. Nəticələrə əsasən, ABŞ-dan köçmək istəyən 7 min nəfər arasında aparılan sorğuda əsas səbəblərdən biri ölkədəki siyasi qütbləşmədir.

"Henley & Partners" şirkəti isə bəyan edib ki, 2020-ci ildən indiyədək müştərilərin müraciətlərinin ümumi sayı kəskin şəkildə artıb və 2024-cü ilin ilk on ayında tələb ötən ilin ümumi göstəricilərini üstələyib. Yerli medianın yazdığına görə, ABŞ Konqresindəki Respublikaçılar və Demokratlar Partiyasının nümayəndələri prezident seçkilərindən sonra ölkədə zorakılıq dalğasının yaranmasından narahatdırlar.




Digər tərəfdən, respublikaçılar əsl təhlükənin Demokratlar Partiyadan prezidentliyə namizəd Kamala Harrisin məğlub olacağı və demokratların rəqibin qələbəsini qəbul edə bilməyəcəyi halda ortaya çıxacağını vurğulayıblar. Bu cür narahatlıqlar fonunda, federal və yerli hüquq-mühafizə orqanları Vaşinqtonda seçki gününə hazırlıq məqsədilə təhlükəsizlik tədbirlərini gücləndirməyə başlayıb və polisin zərərçəkənlərin təxliyəsi üzrə təlimlər keçirdiyi bildirilir.

### Milli Qvardiya təhlükəsizliyin gücləndirilməsinə dəstək verir

Belə ki, iki gün öncə Vaşinqton qubernatoru Cey İnsli prezident seçkiləri ilə əlaqədar ştatın Milli Qvardiyasının hazırlıq vəziyyətinə gətirilməsi barədə göstəriş verib. Bu, Daxili Təhlükəsizlik Departamentinin seçki infrastrukturuna qarşı təhdidlər və ya ştatın cənub-qərbində seçki qutularının yandırılması kimi hadisələrlə bağlı son xəbərdarlığından sonra ehtiyat tədbiri ilə bağlıdır.

Milli Qvardiyanın əməkdaşları noyabrın 4-dən 7-dək vəzifələrini icra edəcək və lazım gələcəyi təqdirdə yerli hüquq-mühafizə orqanlarına kömək göstərəcəklər. Qubernator xatırladıb ki, Vankuver şəhərində seçki qutusunun yandırılması zamanı yüzlərlə bülleten zədələnib və ya məhv olub. Bütün bunlar seçki günü ABŞ-da təhlükəsizliyin gücləndirilməsini zərur edir.

Beləliklə, 5 noyabr 2024-cü il ABŞ-da 60-cı prezident seçkiləri kimi tarixə düşəcək. Bu seçki Birləşmiş Ştatların 47-ci dövlət başçısının seçilməsi ilə yadda qalacaq.

**N.BAYRAMLI**

# Mayya Sandu postunu qoruya bildi

## O, seçkilərin ikinci turunda xaricdə yaşayan moldovalıların sayəsində qələbə qazanıb

Moldova Respublikasının vətəndaşları noyabrın 3-də növbəti dörd il üçün dövlət başçısını seçib. Prezident seçkilərinin ikinci turunda hazırkı prezident Mayya Sandu və Moldova Sosialistlər Partiyasının dəstəklədiyi namizəd, ölkənin sabiq baş prokuroru Aleksanda Stoyanoqlo mübarizə aparıblar. Seçkilərin qalibi Mayya Sandu olub.

Noyabrın 3-də keçirilən ikinci turda ölkədə seçki məntəqələri saat 7.00-da açılıb, saat 21.00-da isə bağlanıb. Moldovada seçicilərin ümumi sayının 53 faizindən çoxu qadınlar, 46 faizə yaxını kişilərdir. Ən fəal seçicilər 56-65 yaş (23,40 faiz), ən passiv seçicilər isə 76 yaşdan yuxarı (4,98 faiz) insanlardır. Seçki Məcəlləsinə əsasən, ikinci turda seçici siyahılarına daxil edilmiş şəxslərin ən azı beşdəbirinin iştirak edəcəyi təqdirdə seçkilər baş tutmuş sayılır.

**Sandu təxminən 55 faiz, Stoyanoqlo isə 45 faiz səs toplayıb**

Səsvermədən bir gün əvvəl ölkənin baş naziri müəyyən qüvvələrin daxili sabitliyi pozmağa cəhd etdiklərini bildirmişdi. Belə ki, Baş nazir Dorin Reçanın sözlərinə görə, Moldova Respublikası görünməmiş bir hücumla üzləşib: "Bütün ölkədə insanlar anonim zənglərlə ölüm təhdidləri alırlar. Jurnalistlər, tanınmış şəxsiyyətlər və sadə vətəndaşlar təhdidlər alıblar". Dorin Reçan əmin edib ki, dövlət orqanları asayişi və vətəndaşların təhlükəsizliyini təmin edəcək. "Biz birik və güclüyük. Moldova özünü müdafiə edəcək. Biz seçkilərə inamla gedirik", - deyə Baş nazir qeyd edib. Bu narahatlıqlara rəğmən seçki günü bir hansı ciddi təxribatlar baş verməyib.

Mərkəzi Seçki Komissiyasının açıqladığı ilkin məlumatlara görə, Moldovanın hazırkı Prezidenti Mayya Sandu noyabrın 3-də keçirilən prezident seçkilərinin ikinci turunda qalib gəlib. Mayya Sandu 55,41 faiz, onun rəqibi Aleksandr Stoyanoqlo isə 44,59 faiz səs toplayıb. Seçkilərdə 1 milyon 679 min 293 seçici iştirak edib. Seçkidə iştirak səviyyəsi 54,31 faiz olub. Müxalifətin - Sosialistlər Partiyasının namizədi Aleksandr Stoyanoqlo məğlubiyyətini etiraf edərək, verdikləri dəstəyə görə tərəfdarlarına təşəkkür edib.



**Dövlət başçısı ölkədaxili səsvermədə rəqibinə uduzsa da...**

Qeyd edək ki, avropayönümlü mövqeyi ilə tanınan Mayya Sandu Moldova daxilində keçirilən seçkilərdə 48,81 faiz, rusiyameyilli Aleksandr Stoyanoqlo isə 51,19 faiz səs toplayıb. Müxalifətin təmsilçisi Qaqauz muxtariyyətində 97 faiz, Dnestryanı bölgədə isə təxminən 80 faizə yaxın səs toplayıb. Ölkənin hazırkı prezidenti rəqibinə xarici ölkələrdə keçirilən səsvermə sayəsində qalib gəlib. Xaricdə yaşayan və seçkilərdə iştirak edən 328 min 877 moldovalı ümumi seçicilərin 20 faizindən çoxunu təşkil edir və onların 270 mindən çoxu (83 faizi) Mayya Sanduya səs verib.

Xatırladaq ki, oktyabrın 20-də keçirilən prezident seçkilərinin birinci turu zamanı 11 namizəd mübarizə aparıb. Həmin seçkilərdə xanım Sandu 656 min 852 səs toplayıb, bu da seçicilərin 42,49 faizi idi. Aleksanda Stoyanoqlo isə 25,95 faiz - 401 min 215 səs toplamışdı.

**Moldova Aİ-yə üzv qəbul olunacaqmı?**

Eyni gündə - oktyabrın 20-də Moldovanın Avropaya inteqrasiyası haqqında referendum da keçirilmişdi. Ölkənin Avropa inteqrasiyası lehinə səslərin sayı əleyhinə olan səslərin sayı ilə, demək olar ki, bərabər olmuşdu. Avropa İttifaqında üzvlüyü seçicilərin 50,39 faizi dəstəkləmiş, 49,61 faizi isə əleyhinə olmuşdu. Oktyabrın 21-də Aİ-nin xarici siyasət xidmətinin nümayəndəsi Peter Stano Brüsseldə keçirilmiş brifinqdə Rusiya və onun nümayəndələrinin Moldova səsvermələrinə "misli görünməmiş müdaxiləsi" barədə bəyanat verməşdi. Oktyabrın 22-də Moldova hüquq-mühafizə orqanlarının prezident seçkilərinin birinci turu və referendum zamanı 400-dən çox seçici satınalınması halını araşdırdığı məlum olmuşdu.

Oktyabrın 31-də Moldova Mərkəzi Seçki Komissiyasının (MSK) binasını, həmçinin Baş Polis Müfəttişliyinin dayanacağında bir neçə avtomobili yandırmağa cəhd edən 5 nəfər saxlanılmışdı. Eyni zamanda, noyabrın 2-də "Euronews" Moskvanın erməniəsilli Ruben Vardanyan və moldovalı İlan Şor kimi "oliqarx agentlərinin" vasitəsilə regionda təsir gücünü artırmaq niyyətində olduğunu bildirmişdi.

Bütün baş verənlərə rəğmən, xanım Sandu xaricdə yaşayan Moldova vətəndaşlarının sayəsində postunu qoruya bildi. O, ölkəsinin Avropaya inteqrasiya yolunu tutduğunu bəyan edib.

**Nardar BAYRAMLI**

# İran İsrailə hücum edəcəkmi?

## Yaxın Şərqdə eskalasiyanın böyümə ehtimalı güclənir

**Yaxın Şərqdə sabitliyin bərpa ediləcəyinə ümid boşa çıxmaqdadır. Oktyabrın 1-də SEPAH-ın İsrailə qarşı keçirdiyi "Doğru Vəd-2" adlı əməliyyata qarşı tərəfin oktyabrın 26-da raket atəşi ilə "cavab verməsi" deyilənləri təsdiqləyir. Xatırladaq ki, oktyabrın 26-da İsrail hərbçiləri İranın bəzi hərbi obyektlərinə zərbələr endirmişdi. Bu barədə məlumat yayan İsrail Müdafiə Qüvvələrinin "Telegram" kanalı hücumun nüvə və neft obyektlərinə istiqamətlənmədiyini, hərbi hədəflərlə məhdudlaşdığını bildirmişdi.**

### Hücum İraqdan olacaq...

İran isə bu dəfə hücum "növbəsinin" onda olduğunu bəyan edir. "The New York Times" qəzetinin yaydığı məlumata görə, İranın ali dini lideri Ayətullah Əli Xamenei oktyabrın 26-na keçən gecə İsrailin hərbi obyektlərə endirdiyi zərbəyə cavab olaraq İsrailə hücuma hazırlıq barədə göstəriş verib. Bu məlumatın qəzetə İrandan olan üç mənbə tərəfindən verildiyi iddia olunur. Bildirilir ki, qərar İranın təhlükəsizlik rəsmilərinin Xameneyini İsrailin vurduğu ziyanla bağlı məlumatlandırmasından sonra verilib. Mənbələr bildiriblər ki, Xameneyi zərərin qisas tələb etdiyini və cavab verməməyin İranın zəifliyinin əlaməti kimi qiymətləndiriləcəyini deyib. Məlumata görə, hücum ABŞ-da keçiriləcək prezident seçkilərindən sonra, yəni noyabrın 5-də baş tutacaq. İranlı mənbələr tarixin prezident seçkilərindən sonraya "salınmasını" prezidentliyə namizədlərdən birinə dəstək kimi anlaşılmaması ilə əlaqələndiriblər. Qeyd edək ki, İsrail təhlükəsizlik xidmətinin məlumatına görə, İran özünü İsrailin cavab zərbəsindən qorumaq üçün hücumu İraq ərazisindən reallaşdıracaq.

Bununla bağlı "Axios" da məlumat yayıb. İsrail mənbələrinə istinadən xəbər verilir ki, İran yaxın günlərdə İraqdan İsrailə geniş miqyaslı hücum təşkil etməyi planlaşdırır. "İsrail kəşfiyyatı hücumun İraqdan çoxlu sayda pilotsuz uçuş aparatları və ballistik raketlərdən istifadə edilərək həyata keçiriləcəyini irəli sürür", - mənbələr bildirib.

### İran cavab hazırlayır...

İran rəsmiləri də hücumun gerçəkləşəcəyini istisna etmir. İranın dini lideri Ayətullah Əli Xameneyi deyib ki, İsrail İrana hücum edərək hesablamalarda səhvə yol verib. O, "X" sosial şəbəkəsində İsrailin vəziyyəti yanlış dəyərləndirdiyini və İran xalqının qüdrətini və qətiyyətini lazımınca qiymətləndirmədiyini yazıb.

İran İnqilabı Keşikçiləri Korpusunun komandanının müavini general Əli Fədəvi Livanın "Əl Mayadeen" televiziya kanalına müsahibəsində İranın cavabının qəti olacağını bildirib: "40 il ərzində heç bir hücumu cavabsız qoymamışıq. "Bizim onların əlində olan hər şeyi bir əməliyyatla məhv etmək gücümüz var".

İran İnqilabı Keşikçiləri Korpusuna yaxın sayılan "Tasnim" xəbər agentliyi isə dini lider Əli Xameneyinin ofisinin rəhbəri Qulamhüseyn Məhəmmədi Qolpayeqaninin fikirlərini yayıb. Qolpayeqani bildirib ki, İran İsrailin "ümidsiz hücumu"na ağrılı cavab verəcək və hərəkətlərinə görə peşman edəcək.

İslam İnqilabı Keşikçiləri Korpusunun komandanı Hüseyn Səlami də bu mövzuda çıxış edib. Onun sözlərinə görə, İsrail bir neçə raket atmaqla regionda qüvvələr balansını dəyişə biləcəyini düşünür, lakin İranın cavabı "bütün təsəvvürləri üstələyir".

Beləliklə, verilən açıqlamaların hər biri İranın İsrailə qarşı hücum planlaşdırdığını deməyə əsas verir. Gün təyin olunmasa da, hücumun yaxın günlərdə baş verməsi ehtimalı irəli sürülür.



### BMT TŞ-də İran-İsrail müzakirəsi...

Oktyabrın 29-da isə İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvaninin BMT-nin Baş katibi Antonio Quterreşə və BMT Təhlükəsizlik Şurasının üzvlərinə göndərdiyi məktubdan sonra Rusiya, Əlcəzair və Çinin tələbi ilə TŞ-nin İsrail-İran məsələsinə həsr olunan toplantısı keçirilib. Əlcəzairin BMT-dəki Daimi Nümayəndəsi Amar Bendjama BMT Təhlükəsizlik Şurasının bir çox üzvünün Qəzzada baş verənlərin ümumən Yaxın Şərqə yayılma riskini önə sürdüyünü qeyd edib. "Təəssüf ki, bu risk artıq reallığa çevrilib. Biz gözlənilməz nəticələri olan regional münaqişə" təhlükəsi ilə qarşı-qarşıyayıq", -deyə o bildirib. Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzia da İsrailin hücum edəcəyini gizlətmədiyini və bu səbəbdən gərginliyin artmasının gözlənildiyini bildirib. ABŞ və bəzi digər müttəfiqlərinin İsraili fikrindən daşındırmağa çalışmadıqlarını qeyd edən Nebenzia deyib ki, onlar İsrailə birbaşa və ya dolayı yolla bu hücumları həyata keçirməkdə haqlı olduğunu söyləyirlər. Nebenzia qeyd edib ki, bu ölkələr məsuliyyətsiz davranaraq Yaxın Şərqdə yeni zorakılıq spiralını işə salıb. ABŞ-ın İsrailə də kəşfiyyat dəstəyi verdiyini ifadə edən Nebenzia bunun beynəlxalq hüququ pozduğunu və uçurumun astanasında olan bölgədə daha çox qeyri-sabitliyə səbəb olduğunu bildirib.

Çinin BMT-dəki daimi nümayəndəsi Fu Konq da İsrailin İranın suverenliyini və ərazi bütövlüyünü pozan hücumlardan əl çəkməyə çağırıb, Təl-Əvivin davranışları ilə artan gərginlikdən dərin narahatlıq keçirdiklərini bildirib və bütün tərəfləri sakitliyə çağırıb.

ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild isə iddia edib ki, beynəlxalq ictimaiyyət İranın aqressiv fəaliyyətinə və terror qruplarına" dəstəyinə qarşı mövqe nümayiş etdirməlidir. O bildirib ki, İsrailin özünümüdafiə hüququ mövcuddur və oktyabrın 26-da məhz bu hüquqdan istifadə olunub. Qrinfild bunu hücum zamanı hərbi obyektlərin hədəfə alınması, heç bir mülki insanın ölümünə səbəb olmaması ilə əlaqələndirib. O, ABŞ-ın hər zaman İsraili dəstəkləyəcəyini deyib.

İranın BMT-dəki daimi nümayəndəsi İrəvani isə İsrailin İranın suverenliyinə və ərazi bütövlüyünə hədəflənmiş hücum həyata keçirdiyini, beləliklə də beynəlxalq hüququ və BMT Nizamnaməsini pozduğunu bildirib. İrəvani İsrailin təcavüzünü ən kəskin şəkildə pisləndiklərini və ABŞ-ın dəstəyi ilə Təl-Əvivin beynəlxalq sülh və təhlükəsizliyi pozduğunu bildirib. BMT TŞ-nin İsraili şiddətlə qınamalı və qətiyyətli addım atmalı olduğunu əsas gətirən İrəvani bəzi ölkələrin İsraili qınamaqdan çəkindiyini qeyd edib.

**SADİQ**

# ABŞ-a qarşı beynəlxalq rəy...

## Dünya ictimaiyyəti Vaşinqtonu nankorluqda qınayır...

### Əfqanıstanda ABŞ-a dəstək verən Azərbaycana qarşı sərgilənən mövqe haqsızdır

Qərbin "demokratiya" pərdəsinə bürünərək öz maraqlarına uyğunlaşdırılmış standartlar müəyyənləşdirməsi sirr deyil. Dünyanın bir çox dövlətlərinə münasibətdə məhz bu maraqlara əsaslanan müstəvidən yanaşmalar sərgilənir. Hətta bəzən eyni mahiyyətə malik olan məsələlərə belə fərqli baxış ortaya qoyulur.

Xüsusilə, ABŞ bu məsələdə hər zaman "fərqlənib". Vaşinqtonun siyasi kursu heç də bəyan olunduğu kimi demokratiyaya, insan hüquq və azadlıqlarına, bəşəri dəyərlərə əsaslanmayıb - tam əksinə, qrup maraqları, lobbi maraqları, ən əsası isə Birləşmiş Ştatların özüün maraqları ön planda tutulub.

### 907-ci düzəliş səhvi...

Bunu sübut etmək üçün çox uzağa getmək lazım deyil - Azərbaycanla bağlı son 30 illik yanaşması ABŞ-ın bütün kartlarını açır. Məsələn, hələ ötən əsrin 90-cı illərində Azərbaycan işğala məruz qalan zaman Vaşinqton bəlkə də tarixinin ən qeyri-demokratik sənədini "qəbul etdi" - 1992-ci ildə ABŞ konqresi tərəfindən qəbul edilən "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəliş ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını qadağan edən bir sanksiya idi. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilən bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirdi. Qadağanın tətbiqinin "səbəbi" isə birmənalı şəkildə haqsız və ədalətsiz formada əsaslandırılmışdı. Belə ki, ermənipərəst konqresmenlər tərəfindən hazırlanan bu qadağa layihəsi guya Azərbaycanın Ermənistana və "Dağlıq Qarabağa" qarşı blokadasından irəli gəlirdi. Halbuki reallıq tamam fərqli idi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 20 faizə yaxın ərazisi işğal edilmiş, bir milyona yaxın insanı qaçqına, dirdərginə çevrilmişdi.


J Street Chooses Palestinian State Over The Hostages
October 17, 2024
Father of Hamas Hostage Criticizes J Street for Prioritizing Palestinian Statehood over Hostage Release
Read More »
Two Events Unite Hundreds of Jerusalem Olim To Celebrate Aliyah And The New Year
October 17, 2024
Over 800 Olim joined the "Jerusalem Welcomes Olim" and "Shuk Olim" events at the Nefesh B'Nefesh Aliyah Campus last week.
Read More »
How Can Europe Help Pakistani Migrants Fleeing Oppression?
October 17, 2024
Switzerland Hosts Conference on Persecuted Asian Minorities and Migration Challenges to Europe
Read More »

Get thej.ca a Pro Israel Voice by Email. Never miss a top story that effects you, your family & your community
Free Sign Up

This is not the first time that America has betrayed one of its allies. Representative Adam Schiff recently introduced the Artsakh Recovery Act, which is designed to seize Azerbaijani assets and utilize them to pay Armenians who were recently displaced in the Second Karabakh War and the subsequent Azerbaijani military operation. The problem with this initiative is it does not propose a similar compensation package for the close to one million Azerbaijanis who were made refugees by Armenia's thirty-year occupation of Karabakh and the seven Azerbaijani districts in violation of four UN Security Council resolutions.

Given that Azerbaijan has been a staunch ally of the West against a nuclear Iran, this legislation indiscriminately targeting Azerbaijan should be considered surprising. However, the United States has demonstrated that they like to throw US allies under the bus to the benefit of their enemies. Just as America abandoned Mohammed Karzai to the Taliban, so now they abandoned the US ally that helped American troops to refuel en route to Kabul and to safely evacuate from the war-torn country. Just as America abandoned Mubarak to the Muslim Brotherhood and the Shah to Ayatollah Khomeini, so now America wants to abandon both Israel and Azerbaijan, two US allies that are in a strategic alliance with each other, to Iran and its allies, whether they be Hamas, Islamic Jihad, Hezbollah, Houthis, Armenia or the mullahs themselves. This is morally reprehensible and world Jewry must stand against this.

Rachel Avraham is the CEO of the Dona Gracia Center for Diplomacy and an Israel-based journalist. She is the author of "Women and Jihad: Debating Palestinian Female Suicide Bombings in the American, Israeli and Arab media."

Vurğulandığı kimi, öz xoşu ilə Ermənisana köçən ermənilərin "hüquqlarını müdafiə" adı altında müxtəlif kampaniyalar təşkil edən ABŞ 30 ilə yaxın bir milyona yaxın insanın haqqının tapdanmasına göz yummuşdu. BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə əməl etməyən Ermənistan həm də ABŞ-ın imza atdığı bir

### ABŞ-ın "siyasi dəyənəyi" - Qarabağ erməniləri...

sənədi saymırdı - bu, beynəlxalq hüquqa, BMT TŞ-yə və lokal olaraq ABŞ-a qarşı edilən hörmətsizlik idi. Azərbaycan Vətən müharibəsində qalibiyyət əldə etməklə Ermənistanı həm də beynəlxalq hüquqa hörmətlə yanaşmağa məcbur etdi. Təəssüf ki, ABŞ bu tarixi missiyanı görmək istəmir və Azərbaycana münasibətdə yenə də ikili standartlara müraciət edir, ermənilərin müdafiəsinə köklənir, bölgədə sabitliyin yaranmasına mane olur.

Bu davranış beynəlxalq ictimaiyyətin də gözündən yayınmır. Hətta Qərb dairələri, mətbuatı, siyasi analitik mərkəzləri belə ABŞ-ın bu haqsız mövqeyini açıq şəkildə tənqid edir. Məsələn, Kanada mətbuatı ABŞ-ı müttəfiqlərinə qarşı nankorluqda ittiham edib. ABŞ Konqresinin Nümayəndələr palatasından Adam Şiffin bu yaxınlarda həmin ölkədəki Azərbaycana məxsus aktivləri hədəfə alan və onları İkinci Qarabağ müharibəsində, eləcə də sonrakı hərbi əməliyyatlarda köçən ermənilərə dəstək vermək məqsədi güdən qanun layihəsini Konqresə təqdim etməsini tənqid atəşinə tutub. Bunun, Amerikanın öz müttəfiqinə xəyanət etdiyi ilk hal olmadığı vurğulanıb. Tanınmış siyasi

### Kanadalı jurnalistdən Vaşinqtona mesaj...

şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham Kanadanın populyar "THEJ.CA" nəşrində işıq üzü görmüş "Amerikanın qərəzli baxışları" sərlövhəli məqalədə Birləşmiş Ştatların İsrailə münasibətdə hazırkı siyasətini qeyri-səmimi, qarşılıqlı etimaddan məhrum kimi dəyərləndirib.

Müəllif Azərbaycanın da bu baxımdan layiq olmadığı analoji ədalətsiz münasibətlə üzləşdiyinə diqqət çəkib.

Onun fikrincə, vaxtilə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymamış Ermənistanın Qarabağı və Azərbaycanın 7 rayonunu otuzillik işğalı nəticəsində qaçqın vəziyyətinə düşmüş bir milyona yaxın azərbaycanlı üçün analoji kompensasiya paketi təklif etməməsi amerikalı konqresmenin təşəbbüsünün qüsurlarındandır.

Həmçinin qeyd olunub ki, Azərbaycanın Yaxın və Orta Şərqdə dini radikalizm və terrorizmlə mübarizədə Qərbin sadiq müttəfiqi olmasının, Amerika qoşunlarının Əfqanıstandan təhlükəsiz şəkildə çıxmasına kömək etməsinin müqabilində bu qanunvericilik təşəbbüsünün irəli sürülməsi təəccüb və heyrət doğurur. Müəllifin qənaətinə görə, ABŞ-ın bu cür davranışı əxlaqi baxımdan qınanılmalı hərəkətdir.

### Haqsız mövqe...

Həmin vaxt əməli ilə sanki işğalçıya haqq qazandıran Vaşinqton 2020-ci il Vətən müharibəsindən sonrakı dövrdə də özünün haqsız və beynəlxalq hüquqla səsləşməyən mövqeyini davam etdirdi. Vaxtilə ATƏT-in Minsk Qrupunun həmsədri kimi, artıq tarixə qovuşmuş "Qarabağ münaqişəsi"nin həllində vasitəçi olmuş Birləşmiş Ştatlar Azərbaycanın öz torpaqlarını azad etməsinə, suverenliyini bərpa etməsinə münasibətdə yenə də fərqli standartlardan reaksiya verdi - xüsusilə, Qarabağdan öz xoşu ilə Ermənistana keçən erməniləri əlində "bayraq" edərək Azərbaycana qarşı təzyiq kampaniyaları formalaşdırmağa çalışan rəsmi Vaşinqton separatçı xuntanın başçılarının həbsi ilə də "razılaşmadı". Artıq bir ildir ki, bu və ya digər vasitələrlə həmin cinayətkarların azad edilməsinə "çalışan" Birləşmiş Ştatlardakı erməni-pərəst kontentin mövqeyi birmənalı şəkildə haqsızlığa söykənir.

### Beynəlxalq terrorizmə qarşı mübarizədə...

Bəli, 2001-ci il 11 sentybar hadisələrindən sonra Azərbaycan da beynəlxalq terrorizmə qarşı mübarizədə səmimi şəkildə ön sırada dayandı. Azərbaycan həmin dövrdə quru, hava və su yolu ilə yüklərin daşınmasında fəal rol oynadığı kimi, həm də bu mübarizədə təmsil olundu - "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Sazişə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələri iki taqımla Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirildi, müvafiq əməliyyatlarda iştirak etdi. Azərbaycan Silahlı Qüvvələrinin 22 nəfərlik sülhməramlı tağımı 2002-ci il noyabr ayının 20-dən Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. 2008-ci il yanvarın 15-dən Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingentinin sayı artırılaraq bölük səviyyəsinə çatdırılıb. 2008-ci il oktyabrın 2-dən Azərbaycan Respublikasının Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin 2 dəfə artırılması barədə qərar qəbul edib. Müvafiq olaraq, 2009-cu il fevralın 19-dan etibarən Azərbaycan Respublikası SQ-nin 90 nəfər sülhməramlı kontingenti Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) əməliyyatlarında Türkiyə taboru tərkibində fəaliyyət göstərib. Paralel olaraq 2010-cu il oktyabrın 5-dən Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) üzrə əməliyyatlarında Azərbaycan Respublikası Sülhməramlı qüvvələrinin töhfəsinin artırılması məqsədilə 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit göndərilib. 2015-ci ilin yanvar ayından isə NATO-nun Əfqanıstanda keçirdiyi yeni "Qətiyyətli Dəstək" adlı qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin 94 nəfərlik kontingenti 6 aylıq rotasiya planına uyğun olaraq xidmət edib. Qlobal təhlükəsizliyə töhfə verən Azərbaycanın bu hərəkəti isə bir daha beynəlxalq hüququ dəstəklədiyinin sübutuna çevrildi. ABŞ-ın onunla yanaşı beynəlxalq terrorizmə qarşı mübarizə aparan Azərbaycana münasibətdə ikili standarta yol verməsi isə həqiqətən nankorluqdur...

# Keçmişdə qalmış gələcək

## Con Miltonun "İtirilmiş cənnət" dini-mistik dastanı haqqında

**əvvəli ötən sayımızda**

Yer üzünün, insanların yaranmasından xeyli əvvəl Şeytan Allaha üsyan qaldırıb, üstəlik, mələklərin bir qismini də tərəfinə çəkə bilib. Zülmət, soyuq cəhənnəmə atılsa da, Şeytan inadından dönmür, qürurunu yenmir, gözdən salınmağıyla, məğlubiyyətiylə barışmır. Ondan ötrü cənnətdə nökərçilik eləməkdənsə, cəhənnəmdə ağalıq eləmək yeydir.

Cəhənnəm mələkləri yenə də İblisin məqamında (müəllif oranı Pandemoniya adlandırır) toplaşıb Tanrıya qarşı mübarizənin növbəti mərhələlərini çəkib-çevirirlər. Şeytan silahdaşlarına yeni dünyanın yaradıldığı, Tanrının o dünyaya mələklər qədər sevdiyi məxluqları yerləşdirəcəyi haqda məlumat verir. Kimisi cinlər ordusunu göylər səltənətinə təzədən hücuma keçməyə, kimisi də cəhənnəmin qaydaya salınmasıyla məşğul olmağa çağırır. Çoxluq bu fikirdədir ki, yeni dünyanı ələ keçirib Tanrıdan qisas almaq, bundan əvvəlsə cəhənnəm mələklərindən kimisə o dünyaya ezam eləmək lazımdır. Qərara gəlinir ki, yeni dünyaya elə cəhənnəm ağası özü getsin. Günahla Ölüm darvazaları Şeytanın üzünə açırlar, Xaos onu getdiyi ünvana çatdırır.

***

Allah uca taxtından həm keçmiş, həm də gələcək zamanı seyrə dalır, Şeytanın yeni dünyaya can atdığını da aydınca görür. Tanrı iradə azadlığı, xeyirlə şəri bir-birindən ayırmaq bəsirəti verdiyi insanın çöküşünü bəri başdan bilir, bunu tək Oğluna da söyləyir. Tanrı Oğlu bəşəriyyətin günahlarını öz çiyninə götürməyə razıdır. Ata Oğulun qurbanını qəbul eləyir, ancaq Allah bir məsələdə qərarlıdır ki, buna qədər insan oğlu Onun yasaqlarını pozduğuna, özünü Tanrıya tay tutduğuna görə cəzasını çəkməlidir. İndən belə bəşər nəsli ölümə məhkum olunacaq. Onları bu bəladan yalnız Məsihin qurbanlığı qurtara bilər. Ata Oğula ölümlü fani libasa bürünməyi tapşırır. Mələklər Tanrı Oğlunun səcdəsinə durur.

Bütün idealist təlimlərin, monoteist dinlərin qəlbini şübhə məngənəsində saxlayan, məntiqini laxladan ziddiyyət burada da tərs üzünü göstərir: əgər Tanrı olacaqları əvvəldən bilirdisə, insana verdiyi iradənin də harada işləyib-işləməyəcəyi Ona öncədən bəlliydisə, törətdiyi əməldə insan oğlunun hansı payı, nə günahı var? Qələm Allahın əlindədirsə, bəşəriyyətə cəza kəsməyin nə mənası var? Nəhayət, seçim azadlığıyla Tanrı yazğısı arasındakı təzadı aradan qaldırmağın hansı yolu, hansı metodu var?..

***

Ədəm bağına yetişən Şeytanı cənnətin gözəlliyi, ilk insanların mükəmməl görkəmi heyran qoyur, bununla belə İblis yenə Allahın planını pozmaq niyyətindən əl çəkmir. Bir qarğa cildində idrak ağacının budağına qonub, Adəmlə Həvvanı necə yoldan çıxarmalı olduğu barədə düşünür. Onların söhbətindən Şeytana bəlli olur ki, qonduğu ağacın meyvəsindən dadmaq Adəmlə Həvvaya yasaq olunub. Deməki, onları bu qadağanı pozmağa təhrik eləmək lazımdır. Bundan ötrü Şeytan qurbağa donuna girib, şirin-şirin yatan Həvvanın başının üstünü kəsdirir, onun yuxusuna girməyə, fikirlərini dolaşdırmağa çalışır. Qoruyucu mələklər İblisin cənnətə soxulmasından xəbər tuturlar, Şeytan ifşa olunsa da, geri durmur, mübarizədən çəkilmir.

Səhər Həvva yuxusunu Adəmə danışır: kimsə onu idrak ağacının meyvəsindən dadmağa şirnikdirib, Həvva da o meyvəni yeməkdən misli görünməmiş bir həzz alıb. Bundan sonra mələklərdən biri Ədəm bağına enib Adəmə Allahla Şeytanın mübarizə tarixindən, İblisin qiyama qalxmasından, böyük döyüşdə məğlub olub cəhənnəmə çəkilməsindən, Tanrının dünyanı altı günə yaratmasından danışır. Adəm ona yaradılışın sirləriylə bağlı bəzi suallar verəndə mələk dərinə getməməyi məsləhət görür. Sonra da Adəm mələyə cənnətdə keçirdiyi günlərdən, Həvvaya rast gəlməsindən xatirələr danışır. Söhbətin sonunda mələk ona Tanrının yasaqlarını pozmamağı bir daha bərk-bərk tapşırıb vəzifəsinin başına qayıdır.

Şeytan bu dəfə duman şəklində Ədəm bağına dürtülür. Orada ilan cildinə girir, Həvvanı al dillə inandırır ki, idrak ağacının meyvəsindən dadmaqla dili açılıb. Həvva bir xeyli tərəddüddən sonra Şeytanın felinə uyub meyvədən yeyir. Meyvənin çox dadlı olduğunu görüb Adəmə də təklif eləyir. Adəm qadının yasağı pozmaqla ölümcül səhvə yol verdiyini anlasa da, Həvvadan ayrı düşməmək üçün idrak meyvəsinin dadına baxır. Bundan sonra hər ikisində şəhvət arzusu, cinsi istək yaranır.

Ona qədər Adəmlə Həvva arasında yalnız ruhani bağlılıq vardı, onlar cənnət bağında iç-içə, könül-könülə yaşayırdılar. Cismani münasibətə girəndən sonra isə hər ikisi xəcalət, peşmançılıq mərəzinə mübtəla olur, vicdan əzabı çəkir. Bunun ardınca ilk qadınla ilk kişi arasında xoş münasibət pozulur, özü də elə pozulur ki, günü bu günəcən düzəlməyib...

***

Baş verənlər Allahdan gizli deyil. Tanrı bircə Oğlunu günahkar bəndələr üzərində məhkəmə qurmağa göndərir. Fəqət Tanrı oğlu nəsilbənəsil ölümə, əzaba, min cür xəstəliyə, min cür bəlaya məhkum olunmuş zavallılara kin, qəzəb yox, rəhm, mərhəmət göstərir.

Şeytan isə bu dəmdə Xaosun çəkdiyi körpüylə cəhənnəminə qayıdır. Burada silahdaşları onu böyük sevinclə, təntənəylə qarşılayırlar. Günahla Ölüm sevincək yer üzünə doğru dartınırlar. Həvva Adəmə doğub-törəməkdən boyun qaçırmağı təklif eləyir, ancaq Adəm deyir ki, bu, Allahın qoyduğu daha bir qanunu pozmaq olacaq.

Tanrı Oğlu atasına insanın öz əməlindən peşman olduğunu, tövbə elədiyini çatdırır. Tanrı bundan razı qalsa da, deyir ki, daha günahkar bəndələr Ədəm bağında bəslənə bilməzlər. Onları cənnətdən çıxarmaq üçün Ədəmə mələk göndərilir. Mələk Həvvanı yuxuya verib Adəmə gələcəkdə baş verəsi mühüm hadisələri, o cümlədən Qabilin Habili qətlə yetirməsini, yer üzündə qövmlərin, xalqların yaranmasını, onların bir-birinə qənim kəsilməsini, Nuh tufanını, Babil qülləsinin tikilməsini, İbrahim peyğəmbərin oğlunu Tanrıya qurban vermək istəməsini, Yaqubun Misir torpağına köçməsini, Musanın yəhudiləri səhrada gəzdirməsini, Davudun, Süleymanın cah-cəlalını, nəhayət, İsa Məsihin zühurunu göstərir. İsanın çarmıxa çəkilməsindən sonra bəşər övladının imanı naziləcək, amma üzülməyəcək. Məsihin ikinci zühuru yer üzündə Şeytanın varlığına son qoyacaq, insan oğlu cənnətə əbədilik girəcək.

Bütün bunları - övladlarına bu dünyada hazırlanmış həyatı öz gözləriylə görəndən sonra Adəm-Həvva cütlüyü təskinlik tapıb cənnət bağından çıxır. Bəşər övladının gələcək taleyi nə qədər faciəli, acımalı olsa da, sonda xeyir, həqiqət, ədalət zəfər çalır. Miltonu özündən sonrakı epoxanın bədbin romantiklərindən, o cümlədən Bayrondan fərqləndirən başlıca cəhət də budur.

***

Ağıl, idrak niyə Adəmlə Həvvanı bədbəxt eləyir? Məsələ burasındadır ki, onlar cənnətdə təmiz, saf ruh kimi yaşayırdılar, nə bilməyə, öyrənməyə, nə də doğub-törəməyə ehtiyacları vardı. Onlar hələ əyinlərinə ehtiras donu geyinməmişdilər, başlarına ağıl çələngi qoymamışdılar. Bilmək, öyrənmək ağılın, doğub-törəmək bədənin tələbatıdır, ruhun bunlara ehtiyacı yoxdur. Ruh onsuz da hər şeyi bilir - bilik ona gərək deyil; ruh onsuz da ölümsüzdür - ölməmək, övladların canında gələcəyə sağ çıxmaq istəyi ona yad-yabançıdır. Odur ki, mən Adəmin əqli-kamal, Həvvanın hüsnü-camal timsalı kimi qələmə verilməsinin də tərəfdarı deyiləm.

Cənnətdə dərdsiz-qayğısız, ölümsüz-itkisiz dolaşan azad, bəxtiyar ruhun ağıl, idrak nəyinə gərək idi? Həmin ağılla o nəyin hesabını çəkəcəkdi, hansı məsələni həll eləyəcəkdi? Necə ki bədən ilk insan üçün ruhun arabasıydı, onu dünyaya bağlayan rabitə qurğusuydu, onu göstərən şəffaf, parlaq güzgüydü, bəşərin ilk əcdadı da yer üzündə ruh kimi dolaşır, canının ağırlığını hiss eləmirdi. İdrak meyvəsini dadandan sonra hər şey dəyişdi, ağılın da, bədənin də öz maraqları ortaya çıxdı. Ruhla cismin, könüllə gövdənin birliyi, ittifaqı, vahidliyi pozuldu, ikisinin arasına sərhəd çəkildi, insan dualistik varlığa döndü. Ağıl ruhla bədənin, Tanrıyla Şeytanın savaş meydanına çevrildi.

Ondan bəri böyük ürəklər, işıqlı başlar bu dualizmi aradan qaldırıb bəşər övladını yenidən öz cənnətinə qaytarmağa, bədəni yenidən ruha təslim eləməyə, insanı yenidən ideal mərtəbəyə ucaldıb Tanrı məqamına çatdırmağa çalışırlar. Bu məntiqdən belə bir paradoksal nəticə hasil olur ki, bəşəriyyətin parlaq gələcəyi qızıl keçmişdə qalıb.

Biz bu yolun harasındayıq - demək çətindir. Ən pisi odur ki, hədəf bəlli, gün aydın, gözlər iti olsa da, çox vaxt aydın görünən hədəfi nişan almırıq. Alanda da oxumuzun çoxu yan keçir. Ona görə ki, hədəfə uzanan əllərimiz təmiz deyil, yay çəkən barmaqlarımız canımızın şirəsinə bulaşıb...



**F.Uğurlu**

# Avropa üçün yeni müdafiə ittifaqı...

## Qitə NATO-dan imtina edir?

### Metsolanın təklifi Qərb koalisiyasının iç üzünü göstərir...

Vaxtilə Avrasiya məkanı üçün "ən ali təmsilçilik kürsüsü" sayılan Avropa İttifaqının cəlbediciliyini itirməsi, əvvəlki gücündə olmaması böyük bir coğrafiya üçün həm də yeni təhlükəsizlik standartı müəyyənləşdirir. Daha çox "iqtisadi dayaqlar" üzərində bərqərar olan birlik özünə qarşı təhdidlərin siyasi-hərbi lokasiyasının daha da genişləndirilməsindən açıq şəkildə çəkindiyini biruzə verir. Vəziyyət qeyri-stabil olduğu qədər qeyri-anlaşılandır - kollektiv Qərbin daxilində təbəqələşmə və dərəcələşmənin təsirləri qabarıq şəkildə hiss olunur. Əgər dünənə qədər özünü Aİ daxilində "birinci dərəcəli" hesab edən avrosentristlərin maraqları anqlo-sakson ittifaqı ilə uzlaşırdısa, artıq bir çox məsələlərdə fikir ayrılığı özünü ortaya qoyur. Bu isə nəticə etibarı ilə yeni siyasi gündəm formalaşdırır. Başqa sözlə, artıq Aİ-dəki bütün "divarlardan" eyni səs gəlir...

### "Ordu" yerinə "müdafiə ittifaqı" - məsuliyyət bölüşdürülür

Təsadüfi deyil ki, daha çox Avropa Komissiyasının prezidenti Ursula Fon der Leyen tərəfindən səsləndirilən "Avropanın təhlükəsizliyi üçün qitə ordusu" təklifi bu dəfə Aİnin başqa bir strukturu tərəfindən "dəstəkləndi". Belə ki, Avropa Parlamentinin sədri Roberta Metsola Avropa Təhlükəsizlik və Müdafiə İttifaqının yaradılmasını vacib sayıb. Roberta Metsola "El Mundo"-ya müsahibəsində Avropa Təhlükəsizlik və Müdafiə İttifaqının NATO-nu tamamlaya biləcəyini vurğulayıb: "Avropa özünə güvənməlidir".

İlk baxışdan, təklif NATO-nun daha da təkmilləşdirilməsinə hədəflənmiş kimi görünə bilər - amma, artıq "köhnə qitə"nin də Qərbin illərdir ki, apardığı "vahid qütb" oyunundan şübhələndiyi ortadadır. Bir neçə ildir, Ukrayna cəbhəsində Rusiya ilə "döyüşən" Qərb və onun tərkib hissəsi olaraq Avropa özünün "resurslarını" bitirib-tükəndirməklə yanaşı, bölgənin inkişaf tempini də təhlükə altına salıb. Onsuz da hələ 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi başladığı zamanlarda Avropanın həm Şərq, həm də Qərb kontingentinin təmsilçilərinin müharibəyə yanaşması birmənalı deyildi. Hətta Fransa və Almaniya kimi ölkələr belə müharibənin uzanma ehtimalının ortaya çıxaracağı çətinliklərdən sığorta edilmədiklərinin fərqində idilər. Müharibə uzandıqca isə məsələnin mahiyyəti daha fərqli xətt ilə inkişaf etməyə başladı. Artıq şərqi Avropa açıq kontekstdə etirazını səsləndirir, Qərbi Avropa isə üstüörtülü "işarələr" vurur. Qitə anlayır ki, onun "kollektiv Qərb" anlayışı ilə bağlılığı yalnız təhlükəsizlik məsələsindən irəli gəlir - Avropa Ordusu ideyasını gerçəkləşdirməklə qitə özünün "Qərb asılılığını" minimuma endirməyə çalışır. Metsolanın bu dəfə "ordu" əvəzinə "müdafiə ittifaqı" deməsi isə həm çəkingənlikdən, həm də məsuliyyətin bölüşdürülməsindən qaynaqlanır. Maltalı siyasətçi əsas NATO müttəfiqinin "tərs baxışlarını" özündən yayındırmaq üçün məhz belə bir "frazaya" müraciət edir...



### Avropa üçün acı gerçəklər...

Bu isə nəticə etibarı ilə Avropanın daxilində disbalans yaradır ki, hazırkı situasiyada bu və ya digər şəkildə bunun epizodik də olsa ştrixləri görünməkdədir:

- Slovakiyanın Baş naziri Robert Fitsoya edilən sui-qəsd;
- Məşhur Qərb nəşrlərinin Avropada terror hücumları riskinin artmasını elan etməsi və bu təhlükəli məqamın 2024-cü ildə daha sürətli artma dinamikasına daxil olması haqda faktlar;
- Miqrant axınının güclənməsi - burada Ukraynadan olan miqrantlar da nəzərə alınır;
- İqtisadi maraqların hərbi iddiaların arxasında "itməsi".

Bütün bunlar qitə olaraq Avropanın başına "NATO cəbhəsində" dayandığı üçün gəlir. "Sülhdən imtina" prinsipi bəlkə də Ukraynadan daha çox Avropanın maraqlarına ziddir. Amma qitə məcburdur - "NATO əməkdaşlığı" qitənin ABŞ-ın planlarının tərkib hissəsi olmasını zəruri edir. Əsas səbəblərdən biri maliyyə məsələsidir - hazırkı təhlükəsizlik meyarı olan NATO ordusunun saxlanılması üçün maliyyənin əsas hissəsi ABŞ tərəfindən tədarük edilir. NATO-nun "nüvə çətiri" birmənalı şəkildə ABŞ-ın ixtiyarındadır.

### Avropa bir addım geridədir...

Qitənin dominant siyasi-iqtisadi birliyinin ordu formalaşdırmaq ideyasının "NATO-nu tamamlayacağı" isə inandırıcı səslənmir. Bu o halda baş verə bilərdi ki, Yens Stoltenberqdən sonra NATO Baş katibliyi kürsüsünə məhz Mərkəzi Avropanın "namizədi" oturaydı. İndiki halda, həm struktur, həm də ideologi baxımdan Vaşinqtonun proyeksiyası kimi çıxış edən NATO-nun formalaşdırdığı mənzərə sanki "Avropa üçün daha çox təhlükə" tezisini özündə əks etdirir. Geniş qarşıdurmalar axtarışında olan, Ukrayna, Yaxın və Orta Şərq, Tayvan və bu tip məsələlərlə yeni-yeni eskalasiyalar yaratmaq perspektivindən əl çəkməyən Vaşinqton hətta Uzaq Şərqdə yeni hərbi ittifaq yaradır - ikinci plan kimi istifadə olunan Avropanın isə bu gərginliklərdən itirdiyi qazancından çoxdur.

- Qitə daxilində ideoloji fikir ayrılıqları, qarşıdurmalar artır;
-Terror təhdidi güclənir;
- Resursların daha çox müdafə xərclərinə yönəldilməsi kimi məcburiyyətlər meydana çıxır;
- Sosial-iqtisadi yaşam göstəricisi geriləyir;
- Təhlükəsizlik arxitekturası sarsılır;
- Dövlətlərarası etimad mühiti zədələnir.

### ABŞ-dan həm çağırış, həm də xəbərdarlıq...

Beləliklə də, təhlükəsizlik amili qitəni ABŞ-ın "arxa bağçası"na çevirir. İndiki halda həm bu "yarlıqdan qurtulmaq", həm də özünün iqtisadi-siyasi və hərbi potensialını özünün maraqları müstəvisində təmərküzləşdirmək üçün Avropa NATO kölgəsindən xilas olmaq uğrunda mübarizə aparır. Metsola bu ideyanın "dönüklük" kimi qiymətləndirilməməsi üçün ehtiyatlı danışır - o anlayır ki, ABŞ-da baş tutan seçkilərin nəticələri də Avropanın təhlükəsizliyi haqda yeni müzakirələr yaradacaq. Prezidentliyə namizədlərdən biri - respublikaçı Donald Tramp prezident seçiləcəyi təqdirdə ABŞ-ın Alyansdan çıxma ehtimalından bəhs açır. Bu, Avropa üçün həm çağırış, həm də xəbərdarlıqdır.

**P.İSMAYILOV**

MİDA

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Sumqayıt Yaşayış Kompleksində və Lənkəran Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

# ELAN

Sumqayıt şəhəri, Bulvar küçəsi, 197 ünvanında yerləşən Sumqayıt Yaşayış Kompleksi üzrə 392 mənzilin, Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi, 303 ünvanında yerləşən Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzilin, ümumilikdə 544 mənzilin satışı 06 dekabr 2024-cü il tarixində saat 11:00-da başlayacaq və 14 dekabr 2024-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 10 dekabr 2024-cü il tarixində saat 11:00-da başlayacaq və 14 dekabr 2024-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Sumqayıt Yaşayış Kompleksi üzrə 392, Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzil olmaqla, ümumilikdə 544 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Sumqayıt Yaşayış Kompleksi üzrə - 27.09.2021-ci il tarixli 31957 nömrəli və 24.01.2022-ci il tarixli 32415 nömrəli;

Lənkəran Yaşayış Kompleksi üzrə - 25.11.2021-ci il tarixli 32210 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 2 saylı Sumqayıt Ərazi İdarəsi və 10 saylı Lənkəran Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

**Sumqayıt Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 458.3 | 12 | 1 | 2 | 24 | 59.9 | 71.8 | "HN CONSTRUCTİON" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi. ev 185, mənzil 14 | 22-09-24 |
| | | | | 3 | 24 | 78.5 | 93.7 | | |
| 3 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | | 22-09-24 |
| 4 | 423.6 | 9 | 1 | 2 | 19 | 59.7 - 60.9 | 72.7 - 74.7 | "CONCO" QSC, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 81A, mənzil 1/2/3. | 31-05-24 |
| | | | | 3 | 17 | 78.1 | 93.8 | | |
| 5 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-05-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 6 | 413.7 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | | 31-05-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 7 | 412.6 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | "Hünər-İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 31-03-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 8 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-03-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 9 | 438.9 | 9 | 1 | 2 | 10 | 59.7 - 60.8 | 72.1 - 74.7 | | 31-03-24 |
| | | | | 3 | 26 | 78.1 - 82.4 | 93.8 - 99.5 | | |
| 10 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | "HN CONSTRUCTİON" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi. ev 185, mənzil 14 | 22-09-24 |
| 11 | 438.3 | 12 | 1 | 2 | 12 | 59.7 | 71.8 | | 22-09-24 |
| | | | | 3 | 36 | 77.2 - 78.5 | 93.4 - 93.7 | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 852.26 | 9 | 2 | 3 | 1 | 72.9 | 85.3 | "Araz İnşaatçı" MMC, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 2 | 810.2 | 9 | 2 | 3 | 11 | 72.9 | 85.3 | | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 3 | 719.34 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | "Merkuri-İnşaat" MMC, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143 | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 4 | 723.55 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 5 | 503.57 | 9 | 1 | 3 | 36 | 75.1 - 76.7 | 89.4 - 91.3 | | 01-03-24 |

### Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

**Qeyd:** "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin **ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.**

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

2 otaqlı mənzillərin qiyməti – **59 700** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **77 200** manatdan başlayır.

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

3 otaqlı mənzillərin qiyməti – **61 965** manatdan,

4 otaqlı mənzillərin qiyməti – **84 150** manatdan başlayır.

**Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.**

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 257-262 manat | 332-354 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 267-281 manat | 362-419 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 2 | 59 700 | 5 970 | **53 730** |
| 3 | 77 200 | 7 720 | **69 480** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 3 | 61 965 | 6 196 | **55 769** |
| 4 | 84 150 | 8 415 | **75 735** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəsmi internet səhifəsinə (www.mida.gov.az) daxil olaraq Sumqayıt və Lənkəran Yaşayış Komplekslərində satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla www.mida.gov.az internet səhifəsində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (5 saylı Bakı, 1 saylı Sumqayıt və Lənkəran regional), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

**Qeyd:** "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.

# Sudanda nə baş verir?

**Uzun müddətdir ki, Şimali Afrikada yerləşən Sudanda hökm sürən böhranlı vəziyyət bütün dünyada narahatlıqla izlənilir. Vaxtaşırı müxtəlif səbəblərdən qaynaqlanan vətəndaş qarşıdurmalarına səhnə olan və iqlim dəyişmələrinin fəsadları ilə üzləşən ölkədə çox kədərli mənzərə hökm sürür, insanlar humanitar fəlakətlə üz-üzədirlər.**

## Qanlı vətəndaş müharibəsinin yeni mərhələsi

Müstəqilliyini 1956-cı ildə elan edən Sudanda vaxtaşırı təkrarlanan vətəndaş qarşıdurmalarını şərtləndirən mühüm amillərdən biri milli-dini etnik müxtəlifikdir. 1983-cü ildə ölkədə dini zəmində yaşanan vətəndaş qarşıdurması Sudanın iki hissəyə bölünməsi ilə sonuclanıb - müsəlmanlardan ibarət şimal və xristianlardan ibarət cənub hissələri. Bununla belə, qarşıdurmalar səngiməyib. 2005-ci ilə qədər davam edən qanlı toqquşmalar ölkə tarixində "ikinci vətəndaş müharibəsi" kimi qalıb. İkinci vətəndaş müharibəsinin davam etdiyi 22 il ərzində aclıqdan, xəstəlikdən, işgəncələrdən və döyüş əməliyyatlarında 2 milyondan çox insan həlak olub, 4 milyondan artıq insan isə qaçqın düşüb. Uzun sürən daxili müharibədən sonra 2005-ci ildə Şimali Sudanla Cənubi Sudan arasında qarşıdurmalara son qoymaq və keçid dövrü barədə razılığa gəlinib. Danışıqlar uzun sürüb. 2011-ci ildə keçirilmiş referendumdan sonra Cənubi Sudan müstəqillik əldə edib.

İmperialist güc mərkəzləri Sudanda da ənənəvi siyasətlərini həyata keçirirlər. Məsələn, ABŞ Sudanın hər iki hissəsinə siyasi və hərbi dəstək verir ki, bu da Vaşinqtonun geoasiyasi və geoiqtisadi maraqlarından qaynaqlanır. Məsələ burasındadır ki, Cənubi Sudan resurslarla zəngindir, burada neft hasil olunur, ixrac kəmərləri və terminallar isə Şimali Sudanda yerləşir. Bu səbəbdən də ABŞ ənənəvi siyasətinə sadiq qalaraq özünü hər iki tərəfin yanında olan kimi göstərir.

Hazırda ölkə yeni vətəndaş müharibəsi dönəmini yaşayır. 2019-cu il aprelin 11-də Sudanda başlayan etirazlar 1989-cu ildən ölkəni idarə edən Ömər əl-Bəşirin devrilməsi ilə nəticələnib. Silahlı qüvvələr onun 30 illik hakimiyyətinə son qoyublar. İnqilabdan sonra ölkə daxilində siyasi qütbləşmə yenə də səngiməyib və hərbi idarəetmə üsul-idarəsinə əsaslanan müvəqqəti hökumət qurulub. 2021-ci ildə konstitusiya dəyişikliyi ilə mülki idarəetmə qurulsa da, hərbi qüvvələr hələ də idarəçilikdən çəkilməyiblər. Bu da siyasi böhranın dərinləşməsinə rəvac verir. Bütövlükdə, mülki hökumət və hərbi idarəetmə arasındakı gərginlik, siyasi partiyalar, qeyri-hökumət təşkilatları arasında qütbləşmə, iqtisadi böhran, korrupsiya, sosial ədalətsizlik, demokratikləşmə prosesindəki pozuntular, etnik və dini münaqişələr yaşanan yeni vətəndaş müharibəsinin əsas qaynaq mənbələridir.

Xatırladaq ki, 2023-cü ilin aprel ayında Suveren Şuranın sədri olan ordu başçısı Əbdülfəttah əl-Burhan ilə Çevik Dəstək Qüvvələrinin (HDK) komandiri Muhammed Hamdan Dagalu arasında fikir ayrılığı səbəbindən Sudanda vəziyyət gərginləşib. Onların arasında əsas ziddiyyətlər vahid silahlı qüvvələrin formalaşdırılması vaxtı və ordunun baş komandanının kim olacağı ilə bağlıdır. Aprelin 15-də Merove hərbi bazası yaxınlığında və paytaxt Xartumda iki struktur arasında toqquşmalar başlayıb. Sonradan toqquşmaların arealı daha da genişlənib. Hərbi əməliyyatlar Darfur regionunun qərbində etnik zorakılığa və dünyanın ən böyük daxili köçkün böhranına səbəb olub. Hazırda ölkəyə nəzarət rəqib düşərgələr arasında bölünüb.



## Yüz minlərlə insanın üzləşdiyi humanitar fəlakət

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ötən ilin aprelində başlayan münaqişə nəticəsində 12,5 mindən çox insan ölüb, 24,7 milyon nəfər humanitar böhranla üzləşib, 1,45 milyondan çox sudanlı isə ölkəni tərk etmək məcburiyyətində qalıb. Bir ildən çoxdur ki, davam edən müharibə Sudanın 14 bölgəsində qida çatışmazlığı ilə bağlı ağır nəticələrə səbəb ola bilər. Bu barədə Ümumdünya Ərzaq Proqramının apardığı qlobal aclıq monitorinqində bildirilib. Sudan hazırda dünyada ən böyük aclıq böhranı təhlükəsi ilə üz-üzədir. Bununla ən çox paytaxt Xartum şəhəri, Darfur və Kordofan bölgələri və Əl-Gezira əyaləti üzləşib. Monitorinqin nəticələrinə əsasən, Sudanda təxminən 755 min insan qarşıdakı aylarda aclığın pik səviyyəsinə çatmaq riski altındadır.

ÜƏP-nin məlumatına görə, qida böhranı ilə yanaşı, Cənubi Sudan həm də qaçqınlar və geri qayıdanlar üçün əsas giriş nöqtəsi olan Renk dairəsində vəba epidemiyası ilə mübarizə aparır. Epidemiya xüsusilə beş yaşından kiçik uşaqlar arasında daha geniş yayılıb.

Qeyd edək ki, Ümumdünya Ərzaq Proqramının qlobal aclıq üzrə xəbərdarlıq sistemi 20 il əvvəl yaradılıb və indiyədək yalnız iki dəfə - 2011-ci ildə Somalidə və 2017-ci ildə isə Cənubi Sudanda təhlükə xəbərdarlığı elan edilib.

*Mübariz ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Milli mədəniyyət nümunəmiz Latviyada...

## Azərbaycan xalçaları Riqadakı sərgidə nümayiş olunur

Xalqımızın həyatını, onun adət və ənənələrini özündə əks etdirən sənət növləri sırasında xalçaçılıq mühüm yer tutur. Bu sənət növü, həmçinin milli mədəniyyət tariximizdə böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, xalça məişətimizdə təkcə qiymətli əşya kimi deyil, həm də istilik, gözəllik, hədiyyə, müalicə vasitəsi kimi istifadə olunur. Bu mühüm sənət nümunəsi bu gün də xalqımızın adət - ənənələrinə uyğun olaraq ən vacib cehiz əşyası sayılır.

Azərbaycan xalçalarının dünya mədəniyyətinin inkişafına təsiri də danılmazdır. Xalçalarımız dünyanın məşhur rəssamlarının tablolarında, səyyahların əsərlərində təsvir olunub, gözəlliyi ilə hamını heyran qoyub. İndi də Azərbaycan xalçalarının sorağı dünya muzeylərindən gəlir. Azərbaycan xalçaları dünyanın bir çox məşhur muzeylərində nadir sənət nümunəsi kimi saxlanılmaqdadır. Məsələn, Qarabağda toxunmuş “Qoca”, Şirvanda “Şamaxı”, Təbrizdə toxunmuş “Ovçuluq” xalçaları Nyu-York şəhərinin “Metropoliten”, Bakının “Xiləbuta” çeşnili sürməyi yerli xalçası Moskvanın Dövlət Tarix Muzeyində və digər muzeylərdə nümayiş etdirilib. Və zaman-zaman təşkil edilən sərgilərdə nümayiş etdirilir. Bununla da yaranışından xalqımızın özü qədər qədim olan xalçaçılıq sənətimiz maddi - mənəvi sərvətimiz kimi ölkəmizə gələn turistlərə, həm də gənc nəsillərimizə təbliğ edilir.

## Möhtəşəm Azərbaycan relyef xalçaları...

Ötən gün Latviyanın tanınmış incəsənət mərkəzlərindən sayılan “Riqa Art Nouveau” muzeyində Azərbaycanın bu ölkədəki səfirliyi, “Azərxalça” ASC və Azərbaycan Fotoqraflar Birliyinin birgə təşkilatçılığı ilə “Toxunmuş nar: möhtəşəm Azərbaycan relyef xalçaları” adlı sərgi açılıb.

“Azərxalça” ASC-dən bildirilib ki, tədbirdə Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov sərginin açılmasını ölkəmizin mədəniyyəti ilə daha da yaxından tanışlıq nöqteyi-nəzərindən əlamətdar hadisə kimi dəyərləndirib. Bildirib ki, tədbir Azərbaycan və Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tarixinə təsadüf edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan mədəniyyətində əhəmiyyətli yer tutan və UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş ənənəvi xalçaçılıq sənəti və nar bayramı sözügedən sərgidə təqdim olunub. Qeyd olunub ki, 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib və ölkəmiz COP29 kimi mötəbər beynəlxalq iqlim tədbirinə ev sahibliyi etmək astanasındadır. Sərginin ətraf mühit sahəsində maarifləndirmə və dayanaqlı inkişaf kimi məqsədləri təşviq etdiyi diqqətə çatdırılıb və bu xüsusda “Azərxalça” ASC-nin ekoloji cəhətdən dayanaqlılıq prinsiplərinə sadiq olduğu qeyd edilib.

Tədbirdə çıxış edən direktor Aqrita Tipane artıq “Riqa Art Nouveau” muzeyində Azərbaycan mədəniyyətinə dair ikinci sərginin keçirildiyini, nümayiş etdirilən xalçaların bənzərsiz və canlı xüsusiyyətlərə malik olduğunu, Azərbaycan xalçaçılıq sənətinin və nar bayramının Latviyada böyük maraq doğurduğunu söyləyib. O, bu yaxınlarda səfirlik tərəfindən Latviya ictimaiyyətinə təqdim edilmiş “UNESCO-da Azərbaycanın əbədi sərvətləri” kitabından söz açaraq, ölkəmizin zəngin mədəni irsə sahib olduğunu vurğulayıb.

Digər çıxış edənlər bu sərginin Azərbaycan irs nümunələrinin keçmiş və gələcək arasında uğurlu sintez yaratdığını, xalçaların ənənəvi və müasir yanaşmaları təcəssüm etdirdiyini və nar rəmzinin dərin mənaya malik olduğunu qeyd ediblər



Tədbir iştirakçılarına “Bağçada meyvələr” kolleksiyası, “Azərxalça” ASC-nin fəaliyyəti və nar bayramı haqqında videoçarxlar təqdim olunub.

## Sərgi 1 ay ərzində açıq olacaq

Qeyd olunmalıdır ki, 3D texnologiyası ilə toxunmuş narlı xalçalar “Azərxalça” ASC-nin gənc rəssam Samirə Allahverdiyeva ilə birgə əməkdaşlıq layihəsi olan “Bağçada meyvələr” kolleksiyasından ilhamlanaraq yaradılıb. Sərgidə müxtəlif ölçülü və dizaynlı üç narlı xalça təqdim olunub. Eyni zamanda, Azərbaycan Fotoqraflar Birliyinin dəstəyi ilə nar mövzusuna dair fotosərgi təşkil edilib.

Tədbirin sonunda milli mətbəximizin ləziz təamları, o cümlədən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş dolma, habelə çay süfrəsi, nar məhsulları iştirakçılara təqdim olunub.

Mərasimdə Latviya Parlamentinin üzvləri, dövlət qurumlarının nümayəndələri, diplomatik missiyaların rəhbərləri, yerli mədəni, ictimai və media dairələrin təmsilçiləri, bu ölkədə yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Sərgi bir ay ərzində ictimaiyyət üçün açıq olacaq.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**




## Azercell-dən qadınların ictimai həyatda fəallığının artırılmasına yönəlik dörd layihəyə dəstək

***Azercell “Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı”nın qaliblərinə qrant ayırdı***

Qadınların ictimai həyatda fəallığının artırılmasına yönəlik sosial layihə müsabiqəsinin final mərhələsi baş tutdu. Layihələrin dəyərləndirilməsi zamanı münsiflər heyəti dayanıqlı, daha geniş sosial kütlələrə faydalı olan, eləcə də rəqəmsal inklüzivliyin təşviqinə, texnoloji həllər vasitəsilə həyat səviyyəsinin daha da yüksəldilməsinə töhfə verən layihələrə üstünlük verdi.

Müsabiqəyə təqdim edilən 30-dan çox layihədən seçim şərtlərini ən yaxşı əks etdirən 5 layihə finala vəsiqə qazandı. Təqdim olunan layihələr əsasən sahibkarlıq, təhsil və iqtisadi səlahiyyətlərin artırılması istiqamətlərini əhatə edirdi. Final mərhələsində iştirak edən qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının nümayəndələri münsiflər heyəti qarşısında layihələrinin əhəmiyyəti haqqında danışdılar.

Münsiflər heyətinin yekdil qərarı ilə dörd layihə qalib elan edildi. Müsabiqənin qalibləri :

* “Huma Quşu” Təhsilə Yardım Fondunun “Aztəminatlı ailələrdən olan istedadlı gənc qadınların bakalavr, magistr və PhD səviyyəsində STEM təhsilinə dəstək” proqramı;

* Şəki şəhərində fəaliyyət göstərən “Balans” İMİB-in “Qadın və biznes - Qadınların sahibkarlıq fəaliyyətinə dair biliklərinin təkmilləşdirilməsi üçün praktiki təcrübə proqramı”;

* “Məhkum qadınların ictimaiyyətə qayıdışı İB”in “Məhkum Sahibkar Qadın İcmaları”nın yaradılması layihəsi;

* “Alternativ Kommunikasiya və Tədqiqatlar İB”in kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qadınların bilik və bacarıqlarının artırılması üçün nəzərdə tutulmuş “FarmHER” layihəsi oldu.

Ümumilikdə layihələrin həyata keçirilməsi üçün Azercell 30.000 AZN dəyərində qrant ayırdı.

Layihələrin qiymətləndirmə prosesinin şəffaflığını və obyektivliyini təmin etmək məqsədilə müsabiqəyə təqdim olunan təkliflər bu sahə üzrə ixtisaslaşmış ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirildi.

Azercell bütün iştirakçılara müsabiqəyə göstərdikləri maraq üçün təşəkkür edir, qaliblərə isə layihələrinin həyata keçirilməsində uğurlar arzu edir!

Final mərhələsi haqqında video ilə tanış olmaq üçün:
https://youtu.be/HW_3a7fXSMo

## Azercell “Ən Yaxşı Mükafatlandırma və Tanıma Strategiyası” mükafatına layiq görülüb

***Mükafat Azərbaycanda ilk “Dayanıqlı gələcək üçün yaşıl insan resursları” şüarı ilə keçirilən “COP29 Human Capital Forum” tədbiri çərçivəsində təqdim olunub***

Azərbaycan HR İnstitutunun təşkilatçılığı ilə “Dayanıqlı gələcək üçün yaşıl insan resursları” mövzusunda “COP29 Human Capital Forum”u baş tutub. Bu tədbirdə “Azercell Telekom” MMC insan kapitalının qiymətləndirilməsi və əməkdaşlarının peşəkar inkişafına verdiyi dəstəyə görə “Ən Yaxşı Mükafatlandırma və Tanıma Strategiyası” (“Best Rewards and Recognition Strategy”) mükafatı ilə təltif edilib.

Azercell-in insan kapitalinin idarə olunması sahəsində apardığı proseslər və tətbiq etdiyi sistemlər beynəlxalq təcrübəyə uyğun qurulub. Şirkət istedadlı gənclərin işə cəlb olunmasına, peşəkar kadrların yetişdirilməsinə, onların bilik və bacarıqlarının artırılmasına daima xüsusi diqqət göstərir. Azercell-in mükafatlandırma və tanıma strategiyası əməkdaşların iş məmnuniyyətini və bağlılığını artırmağa, onların fəaliyyətini dəyərləndirməklə daha yüksək nəticələr əldə etməyə yönəlib. Bu strateji yanaşma işçilərin peşəkar inkişafına dəstək olmaqla yanaşı şirkətin uğurlu gələcəyi üçün möhkəm zəmin yaradır.

Qeyd edək ki, “COP29 Human Capital Forum”u Azərbaycan Prezidenti İlham Əliyevin “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf” proqramı çərçivəsində “Rəqabətli insan kapitalı və müasir innovasiyalar” prioritetinə əsaslanıb. Forumda yerli və beynəlxalq şirkətlərin insan resursları üzrə rəhbərləri, konsaltinq şirkətləri və dövlət qurumlarının nümayəndələri insan kapitalının davamlı inkişafı və iqlim dəyişikliyi ilə mübarizədə innovativ həllər mövzusunda fikir mübadiləsi aparıblar.

Forum dünyanın 160-dan çox ölkəsində 15000-dən çox şirkət və 5000-dən artıq üzvü olan BMT-nin Qlobal Sazişi ilə tərəfdaşlıq çərçivəsində keçirilib. Azercell də 2023-cü ildə Dayanıqlı İnkişaf Məqsədlərinə dəstək məqsədilə bu sazişə qoşulub və bu istiqamətdə fəaliyyətini davam etdirməkdədir.






## Azercell COP29-un telekommunikasiya tərəfdaşıdır

“Azercell Telekom” MMC COP29-un rəsmi telekommunikasiya tərəfdaşı qismində çıxış edərək davamlı və dayanıqlı inkişafa, ətraf mühitin mühafizəsinə sadiqliyini bir daha nümayiş etdirir. COP29-la tərəfdaşlıq çərçivəsində şirkət dayanıqlılıq strategiyasını gücləndirməklə yanaşı, daha yaşıl gələcək üçün yeni əməkdaşlıqların qurulmasını hədəfləyir.

“Azercell Telekom” MMC-nin prezidenti Zərinə Zeynalova şirkətin cəmiyyət və ətraf mühit qarşısında üzərinə götürdüyü sosial məsuliyyəti vurğuladı: “Azercell Azərbaycanın lider mobil operatoru və ölkənin rəqəmsal ekosisteminin aparıcı qüvvələrindən biridir. Şirkətimiz ölkə boyu tətbiq etdiyi ekoloji cəhətdən təmiz texnologiyalar və bərpa olunan enerji həlləri vasitəsilə ətraf mühitə təsirini minimuma endirməyə çalışır. İqlim dəyişikliyinə qarşı mübarizə səylərini dəstəkləməklə biz korporativ idarəetmədə yeni standartlar da müəyyən edirik. Birlikdə daha dayanıqlı və yaşıl gələcək üçün zəmin yarada biləcəyimizə inanıram”.

COP29 Azərbaycanın İdarə Heyətinin sədri Nərmin Carçalova Azercell-in təcrübəsinin bu tədbirin uğurla həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib: “Azercell ölkəmizdə ən böyük bazar payına sahib mobil operator olaraq telekommunikasiya məkanında böyük nüfuza malikdir. Hər zaman ölkəmizə innovativ texnoloji yenilikləri gətirən Azercell COP29-da sosial yönümlü layihələrini, xüsusilə də iqlim fəaliyyəti ilə bağlı həyata keçirdiyi təşəbbüsləri nümayiş etdirmək imkanı əldə edəcək”.

Azercell-in dayanıqlılıq siyasəti müxtəlif ekoloji təşəbbüslər vasitəsilə karbon emissiyalarının azaldılması, enerjidən istifadənin optimallaşdırılması, su və yanacaq səmərəliliyinin artırılmasına yönəlib. Şirkət 2017-ci ildən etibarən ölkə ərazisində günəş enerjisi ilə işləyən baza stansiyalarının tətbiqinə başlayıb. Təkcə Qarabağda lider mobil operatorun 35 yaşıl baza stansiyası fəaliyyət göstərir və onların enerji tələbatının 60%-i bərpa olunan enerji hesabına qarşılanır. Həmçinin Azercell bir sıra qlobal iqlim təşəbbüslərini də dəstəkləyir. Belə ki, BMT-nin Qlobal Sazişinə və GSMA-nın İqlim Fəaliyyəti İşçi Qrupuna qoşulmaqla Azercell digər bazar iştirakçılarını da ətraf mühitlə bağlı səylərini gücləndirməyə təşviq edir. Qeyd edək ki, bu il Azercell ictimaiyyətə ilk ESG hesabatını da təqdim edib.

10 gün davam edəcək tədbir zamanı Azercell COP29-un keçiriləcəyi məkanda konfrans iştirakçılarını kəsintisiz telekommunikasiya xidmətləri ilə təmin edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2578**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli